AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ
İNSTİTUTU

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN YENİ MƏZMUNUNUN XÜSUSİYYƏTLƏRİ

Standartların mahiyyəti, məzmunu, strukturu və verilmə ardıcıllığı

Məktəbəqədər təhsilin inkişaf sahələri

Təlim strategiyalarından istifadə

Uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsi



**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ**
**TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU**

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN YENİ MƏZMUNUNUN XÜSUSİYYƏTLƏRİ

**(Metodik tövsiyə)**

**Bakı-2015**

*Metodik tövsiyə Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişinə əsasən hazırlanmışdır.*

*Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun elmi şurasının qərarı ilə nəşr olunur.*


**Elmi redaktoru:** **Ə.M.Abbasov**
*Təhsil Problemləri İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Müəlliflər:** **İlham Cavadov**
*Təhsil Problemləri İnstitutunun Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**L.K.Cəfərova**
*Təhsil Problemləri İnstitutunun Məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**K.R.Məmmədova**
*Təhsil Problemləri İnstitutunun məktəbəqədər təhsilin kurikulumu şöbəsinin böyük elmi işçisi*



**İ.A.Cavadov, L.K.Cəfərova, K.R.Məmmədova.** Məktəbəqədər təhsilin yeni məzmununun xüsusiyyətləri. Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, - 66 səh.



Metodik tövsiyədə məktəbəqədər təhsilin yeni məzmunu: inkişaf sahələri, standartların mahiyyəti, məzmunu, strukturu və verilmə ardıcıllığı, təlim strategiyalarından istifadə, uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsi barədə məsələlər öz əksini tapmışdır.

Metodik tövsiyə məktəbəqədər təhsil müəssisələri, onun pedaqoji heyəti üçün nəzərdə tutulmuşdur. Ondan təhsil menecerləri və mütəxəssisləri, elmi işçilər və tələbələr istifadə edə bilərlər.



**©ARTPİ, 2015**

**Mündəricat**


Giriş........................................................................ **4**

Məktəbəqədər təhsilin yeni məzmunu:
inkişaf sahələri.............................................................. **7**

Bilik, bacarıq və dəyərlərin formalaşdırılması................. **9**

Keyfiyyətin idarə olunmasının təmin edilməsi................ **12**

Uşaqların inkişafının izlənilməsinə imkan yaradılması.... **18**

Standartların mahiyyəti, məzmunu və inteqrativliyi........ **20**

Standartların qabaqlayıcı funksiya daşıması.................... **24**

Standartların strukturu və verilmə ardıcıllığı.................... **29**

Təlim strategiyalarından istifadə...................................... **32**

Uşaqların inkişafının izlənilməsi və
dəyərləndirilməsinə dair.................................................. **44**

İstifadə olunmuş ədəbiyyat.............................................. **54**

## Giriş

XXI əsr insan fəaliyyətinin bütün sahələrində yeniləşmələrlə səciyyələnir. Bu yeniləşmələr ötən əsrin axırlarında meydana çıxmağa başlasa da, onun mahiyyət aydınlığı, məzmunu, tətbiq imkanları və yolları XXI əsrdə dəqiqləşmə və zənginləşməyə məruz qalmışdır. Cəmiyyətin tərəqqisinin vacib amilləri olan elm və mədəniyyətin, xalqın intellektual potensialının formalaşması onun təhsil sistemi ilə təmin edilir.

Təhsil sisteminin qarşısında duran dərin biliyə, bacarığa malik şəxsiyyət formalaşdırmaq, vətənini, xalqını sevən, hərtərəfli inkişaf etmiş sağlam nəsil yetişdirmək kimi mühüm vəzifələrin yerinə yetirilməsində məktəbəqədər təhsilin rolu böyükdür. Məktəbəqədər təhsil vahid təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri olan təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni yanaşmaların, fəal təlim metodlarının tətbiqi və onlardan səmərəli istifadənin təşkili təhsil sistemində ən vacib bir problem kimi qiymətləndirilir. 1999-2013-cü illəri əhatə edən Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramında deyildiyi kimi, "cəmiyyət öz gələcəyini təmin etmək məqsədilə yeni nəslin yüksək səviyyədə hazırlığına nail olmalı və buna görə də təhsil üstün inkişaf etdirilən sahəyə çevrilməlidir".[1] Təhsil-cəmiyyətin ən zəruri komponentlərindən olub mühüm sosial hadisə kimi inkişafın əsasını təşkil edir. Demokratik tərəqqi yolunda olan Azərbaycanda təhsilə məhz bu müstəvidə yanaşılır.

---

[1] Azərbaycan Respublikasının Təhsil sahəsində islahat Proqramı.Bakı, 1999, s.8

Təhsil sahəsində İslahat Proqramında məktəbəqədər təhsilin strukturunda aşağıdakı islahatların aparılması bir vəzifə kimi qarşıya qoyulmuşdur:

- Azərbaycan Respublikası ərazisində yerləşən məktəbəqədər müəssisələrdə uşaqların kəskin surətdə azalmasını nəzərə alaraq məktəbəqədər müəssisələrin şəbəkəsini genişləndirmək;
- Müasir tələblərə cavab verən, uşaqların dünyagörüşünü artıran, onların fiziki inkişafına imkan yaradan, sağlamlığını qoruyan yeni tipli müəssisələrin açılmasını təmin etmək.

Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramında qoyulmuş vəzifələrə əsasən Azərbaycanda məktəbəqədər təhsilin sürətlə inkişaf etdirilməsi və onun beynəlxalq standartlara tam uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 12 mart 2007-ci il tarixli, 2089 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" (2007-2010-cu illər) təsdiq edilmiş və hazırda proqramın yerinə yetirilməsi istiqamətində əməli tədbirlər həyata keçirilir.

Məktəbəqədər təhsil proqramının (kurikulumun) xarakterik cəhəti ondan ibarətdir ki, təlim prosesində uşaqların yaddaşının təkcə yeni məlumatlarla zənginləşdirilməsinə deyil, həm də təfəkkürünün, şəxsi keyfiyyət və qabiliyyətlərinin inkişaf etdirilməsinə, həyat üçün zəruri olan bacarıqların qazanılmasına imkan yaranır, uşaqyönümlülüyə, nəticəyönümlülüyə, tələbyönümlülüyə istinad olunur.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) nəticəyönümlü, uşaqların meyl, maraq və qabiliyyətlərinə əsaslanan, onların potensial imkanlarını nəzərə alan, məktəbəqədər yaş dövrünün xarakterik xüsusiyyətlərini, məzmununu, məqsəd və vəzifələrini, təlim strategiyalarını və uşaqların inkişafının izlənilməsi və qiymətləndirilməsini özündə əks etdirən konseptual bir sənəddir.

Məktəbəqədər təhsil proqramının (kurikulumun) ən mühüm xarakterik cəhəti onun nəticəyönümlü olmasıdır. Bu sənədin hazırlanması zamanı, bir qayda olaraq, hər bir yaş qrupunda təlim prosesində əldə edilməsi nəzərdə tutulan nəticələr əvvəlcədən müəyyənləşdirilir və məzmuna gətirilir. Bu nəticələr həm məzmunu ifadə edir, həm də uşaqların inkişafının izlənilməsi və qiymətləndirilməsinə imkan verir. Nəticələrin əvvəlcədən müəyyən olunması onları əldə etməyə yönəlmiş fəaliyyətlərin inkişafını izləmək və istiqamətləndirmək üçün imkan yaradır.

Məktəbəqədər təhsil proqramındakı (kurikulumdakı) təlim nəticələri uşaqların fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, sosial-emosional, idraki, estetik və yaradıcı inkişaflarına və yaşlarına uyğun elementar bilik və bacarıqların mənimsənilməsinə yönəlmişdir.

## Məktəbəqədər təhsilin yeni məzmunu: inkişaf sahələri

Artıq respublikamızda "Məktəbəqədər təhsilin proqramı (kurikulumu)" hazırlanmışdır. Bu sənədə əsasən məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyənin təşkilinin aşağıdakı dörd ***inkişaf sahəsi*** əsasında aparılması nəzərdə tutulur:

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**

Məktəbəqədər təhsil müəssisələrində uşaqların fiziki inkişafı, sağlamlığının qorunması və təhlükəsizliyi təmin olunur. Sağlamlığın möhkəmləndirilməsi, orqanizmin müqavimət qabiliyyətinin yüksəldilməsinin əhəmiyyəti haqqında anlayışlar yaradılır. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Uşağın hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyən edilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması (rasional qidalanma, düzgün təşkil edilmiş rejim, fiziki mədəniyyət məşğələləri və s.), bunların qarşılıqlı əlaqədə olması, düzgün qamət, hərəkət texnikası, hərəkətli oyunların qaydaları, eləcə də, hərəkət vərdişləri ilə yanaşı, uşaqlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi təmin olunur.

Təhlükə və çətinliklərə hazırlıq, yol-hərəkəti qaydaları, ekstremal vəziyyətlərdə və təhlükəli situasiyalarda necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, küçədə mədəni davranmaq, təbii hadisələr və yanğın zamanı müraciət qaydalarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşdırılmasına imkan yaranır.

**İdrakın inkişafı**

Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişafı onlarda öyrənməyə həvəs və maraq formalaşdırır. Məktəbəqədər yaşlı uşağın idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunluq, mühüm şərt hesab olunur. Məktəbəqədər yaş

dövründə uşaq idrakın inkişafı baxımından, ilk növbədə, sadə danışıq dilinə və rabitəli nitqə yiyələnir, ətrafdakılarla ünsiyyət qurur, öz fikirlərini təqdim etməyi öyrənir. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə edir, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək qabiliyyəti nümayiş etdirir. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, ümumiləşdirmə və konkretləşdirmə, analiz və sintez, təsnifetmə və sistemləşdirmə, mücərrədləşdirmə və analogiya kimi mühakimə qabiliyyətləri inkişaf edir.

**Estetik və yaradıcı inkişaf**

Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. Bu sahədə aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşməsi, quraşdırma prosesində müxtəlif modellərin qurulması, yeni hekayə və nağılın, musiqi fəaliyyətində sadə melodiyanın dinlənilməsi, mahnı və uşaq musiqi alətlərində ifa məktəbəqədər yaşlı uşaqların estetik inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır.

**Sosial-emosional inkişaf**

Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişafı edir. Uşaq özünün emosional əhvalını məhz yaşadığı sosial mühitin normaları əsasında, buna uyğun olaraq tənzimləyir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq və s. kimi mənəvi keyfiyyətlər yaranır. Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranma qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Kommunikasiyanın köməyilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur. Kommunikasiya uşağın sosial şəxsiyyət kimi formalaşmasında əsas vasitəyə çevrilir.

## Bilik, bacarıq və dəyərlərin formalaşdırılması

Müasir dövrdə məktəbəqədər təhsilin yeni məzmunu böyüməkdə olan nəslə "nəyi" və "necə öyrətməyin" öyrənilməsi və həyata keçirilməsini əsas məqsəd kimi qarşıya qoyur. Məktəbəqədər təhsilin yeni məzmununun əsasını təlim üçün seçilmiş bilik və bacarıqların dəqiq və müasir sistemi təşkil edir. Bu sistem müasir dövrün tələblərinə uyğun biliklərin əldə olunması və ümumiləşdirilməsi, intellektual və təcrübi bacarıqlara çevrilməsi, onlardan istifadə üsulları, sosial və mədəni inkişaf səviyyəsini təmin etməyə kömək edən nəzəri və təcrübi problemlərin həllinə yönəldilmişdir.

Bu baxımdan hazırda dünya təhsilindəki yeni ideyalar, informasiya texnologiyalarından geniş və məqsədyönlü şəkildə istifadə edilməsi, biliklərin inteqrasiyası daha əhəmiyyətlidir.

Məktəbəqədər yaşlı hər bir uşaqda gündəlik həyatda onlar üçün xarakterik olan dəyərlər formalaşdırılmalı, onlar öz fikir və istəklərini sərbəst şəkildə ifadə etmək, məsuliyyətli və təşəbbüskar olmaq, əməkdaşlıq etmək, müstəqil fəaliyyət göstərmək bacarıqlarına malik olmalıdırlar. Bu baxımdan tərbiyəçilər təlim və təlimdənkənar vaxtlarda müxtəlif interaktiv üsullardan istifadə etməklə uşaqlarda şüurlu fəaliyyət göstərmək, məsuliyyət, səmimilik, böyüklərə, kiçiklərə hörmət və qayğı, həmyaşıdlarına, ətrafdakılara güzəştə getmək bacarıqları və müxtəlif etik normalar formalaşdıraraq, möhkəmləndirməlidirlər.

Məktəbəqədər yaşlı uşaqlarda bilik və bacarıqların, psixofizioloji dəyərlərin formalaşdırılması bu gün cəmiyyətdə uşaqların təhsili və gələcək həyatı üçün vacib olan tolerantlıq bacarıqlarının da inkişafına böyük təkan verir. Belə ki, uşaq dilindən, dinindən və irqindən asılı olmayaraq, qrupda, yaxud gündəlik həyatlarında rastlaşdığı, yaxud onu əhatə edən bütün insanlara qarşı mehribanlıq, səmimilik və güzəştə getmək bacarığı nümayiş etdirmələri uşaqda tolerantlığın ilk göstəricilərindəndir.

Müasir dövrdə uşaqların təhsil sahəsində öyrənilmə nəzəriyyələrinin əsasını uşaq bioloji inkişaf mərhələləri ilə yanaşı, onların müasir təlim zamanı bir tədqiqatçı kimi sərbəst fəaliyyət göstərmələri və sosial münasibət qurmalarının öyrənilməsi təşkil edir. Təlim zamanı uşaqların bir tədqiqatçı kimi fəaliyyət göstərməsi onların mənimsədikləri biliklərin bacarıqlara çevrilməsinə səbəb olur. Məktəbəqədər təhsil proqramında (kurikulumunda) müəyyənləşdirilmiş inkişaf sahələri üzrə uşaqların mənimsədikləri bilik və bacarıqlar daim tərbiyəçi və valideynlər tərəfindən dəyərləndirilərək, qiymətləndirilməlidir. Müasir məktəbəqədər təhsil uşaqların ümumi inkişafı üçün onlarda aşağıdakı bilik və bacarıqların:

- *uşaqların fiziki inkişafı; öz nailiyyətlərini başqaları ilə bölüşməsi; verilən tapşırığı fərdi və qrup şəklində yerinə yetirmək; sərbəst fikir söyləyərək, başqalarının fikirlərinə münasibət bildirmək; səbəb və nəticə arasında əlaqəni məntiqi ardıcıllıqla tapmaq; nitqinin inkişafı; sadə riyazi təsəvvürlərin formalaşdırılması; savad təlimini; ətraf aləmlə tanışlığın inkişafı; təsviri fəaliyyət, yapma və applikasiya işi; konstruktiv fəaliyyət; musiqi duyumunun inkişafı* formalaşdırılmasını nəzərdə tutur.

Uşaqların ümumi inkişafının təmin edilməsinə uyğun olaraq məktəbəqədər təhsil proqramında (kurikulumunda) nəzərdə tutulan bütün bilik və bacarıqlar uşaqların məktəb təliminə hazırlığı və inkişafı üçün şərait yaradır.

Proqramın tələblərinə uyğun olaraq hər bir tərbiyəçiyə məktəbəhazırlıq dövründə uşaqlarda aşağıdakı bilik, bacarıq və dəyərlərin formalaşdırılmasına xüsusi diqqət yetirmələri tövsiyə olunur:

- *müqayisə əsasında analiz-sintez aparmaqla, hadisələr arasında səbəb-nəticə əlaqələrinin təhlil olunması;*
- *ixtiyari və davamlı diqqətin formalaşdırılması;*
- *böyük, kiçik və hissi motor hərəkətlərinin inkişafı;*
- *sanitar-gigiyenik qaydalara əməl olunması;*
- *davranış etiketlərinin yerinə yetirilməsi;*
- *estetik bacarıqların: təsviri incəsənət, musiqi duyumu, applikasiya işi və s. formalaşdırılması;*
- *sosial münasibətlər qurma bacarığı;*
- *hərflərin (çap və kəsmə əlifba ilə) tanınması;*
- *ifadəli və aydın nitq qabiliyyəti;*
- *sadə məntiqi məsələləri həll etmək bacarığı;*
- *biliklərin təfəkkürə əsaslanaraq mənimsənilməsi;*
- *fikirlərinin dəqiq və məntiqli ifadəsi.*

Yuxarıda sadalanan göstəricilər uşaqların məktəb təliminə fiziki və psixoloji cəhətdən hazırlığını təmin edir. Beləliklə, məktəbəqədər təhsil müəssisələrində uşaqlara verilən sadə bilik və bacarıqlar onların dünyanı dərk etmələrinə kömək edəcək əsas biliklər üzərində qurulur və bacarıqlar şəklində formalaşır.

## Keyfiyyətin idarə olunmasının təmin edilməsi

Azərbaycan təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri olan təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni yanaşmaların, fəal təlim metodlarının tətbiqi və onlardan səmərəli istifadənin təşkili təhsil sistemində ən vacib bir problem kimi qiymətləndirilir. Müasir təhsilin modernləşdirilməsi onun özülünün saxlanılması şərti ilə təhsilin keyfiyyətinin təminatına, şəxsiyyətin, cəmiyyətin və dövlətin aktual və perspektiv tələblərinə uyğun inkişafın yeni təhsilləndirici siyasətini təklif edir. Azərbaycan Respublikasının dövlət təhsil siyasətinin əsas vəzifələrindən biri məktəbəqədər təhsilin müasir tələblər baxımından keyfiyyətinin təmin edilməsidir.

Bu cəhətdən ictimai təhsilin birinci pilləsi olan məktəbəqədər təhsilin keyfiyyəti müasirliyin ən mühüm dəyəri kimi çıxış edir.

Hazırda məktəbəqədər təhsil sistemi sürətlə inkişaf edir. Müasir cəmiyyət məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesinin təşkilinə, təlim proqramının məzmununa, pedaqoji işçilərin fəaliyyətinin nəticəliliyinə, pedaqoji kadrların peşəkarlığına yeni tələblər irəli sürür. Yaşadığımız dövr dərin, müxtəlif tərəfli və möhkəm biliklər, məzmunun yeniləşməsinin yüksək tempini, mənimsəmədə fasiləsizliyi tələb edir. Müasir dövrün tələbatlarını nəzərə alaraq, pedaqoji səriştəliliyin və

peşəkarlığın daha yüksək səviyyəsinin təmin edilməsi günün başlıca vəzifəsidir.

Keyfiyyət nədir? Keyfiyyət-fəaliyyətin bütün tərəflərinin səmərəliliyini xarakterizə edən (strategiyanın işlənilməsi, təlim - tərbiyə prosesinin təşkili və s.) kompleks anlayışdır.

Təhsilin keyfiyyəti, təhsil sisteminin əsas xarakteristikası olub, əldə olunmuş real təlim nəticələrinin, normativ sənədlərin tələblərinə və gözlənilən nəticələrə hansı səviyyədə uyğunluğunu müəyyənləşdirir. Keyfiyyətin idarə olunması keyfiyyətlə bağlı kompleks məsələlərin həlli səviyyəsini müəyyən edən əsas parametr hesab edilir.

Məktəbəqədər təhsil müəssisəsinin nəticə üzrə idarə olunması təlim-tərbiyə prosesində (proses üzrə idarə olunma) həyata keçirilməlidir. Keyfiyyətə nəzarəti yalnız müdiriyyət deyil, təlim-tərbiyə prosesinin bütün subyektləri həyata keçirməlidirlər. Kefiyyəti idarə edərkən gücü nəzarətə deyil, iştirakçıların təlimi və səmərəli texnologiyanın (tərbiyəçilərdə-pedaqoji, rəhbərlərdə-idarəetmə) formalaşdırılmasına yönəltmək lazımdır. Təhsilin keyfiyyəti üç komponentin məcmusundan: ***təhsil prosesinin keyfiyyətindən, təhsil prosesinin həyata keçirilmə şəraitinin keyfiyyətindən, nəticələrin keyfiyyətindən*** ibarətdir. Təhsil prosesinin keyfiyyətinin idarə edilməsi fasiləsiz olaraq keyfiyyətin yaxşılaşdırılmasına istiqamətlənmiş iş prosesinin sistemli, inteqrativ təşkilindən ibarətdir.

Məktəbəqədər təhsilin keyfiyyəti - uşaq həyatının keyfiyyəti deməkdir.

Bu gün məktəbəqədər təhsilin keyfiyyəti dedikdə təhsil xidmətlərinin sifarişçisi olan cəmiyyətin, məktəbəqədər yaşlı uşaqların valideynlərinin tələblərinə uyğunluğunu və onların məmnunluq ölçüsünü, kadr potensialının və inkişafetdirici mühitin uyğunluğu, məktəbəqədər təhsil üzrə dövlət standartları,

uşağın proqramı mənimsəməsi və onun növbəti təhsil səviyyəsinə keçid üçün məktəbəqədər təhsil və onun imkanları başa düşülür.

Məktəbəqədər təhsilin keyfiyyəti - uşaq bağçasında pedaqoji prosesin elə bir təşkilatı işidir ki, hər uşağın tərbiyə və ümumi inkişaf səviyyəsi təlim tərbiyə prosesində onun fiziki və yaş imkanlarından, qabiliyyətlərindən asılıdır.

Məktəbəqədər təhsil müəssisələrinin keyfiyyəti:

- tərbiyəçinin işinin keyfiyyətindən, yəni peşəkarlıq səviyyəsindən;
- kollektivdaxili münasibətlərdən;
- tərbiyəçilərin uşaqlarla işdə yeni metodların, iş formalarının yaradıcı axtarışları üçün müəssisə rəhbərinin yaratdığı şəraitdən;
- hər bir əməkdaşın fəaliyyətinin nəticələrinin obyektiv qiymətləndirilməsindən asılıdır.

Məktəbəqədər müəssisə şəraitində keyfiyyətin idarəetmə texnologiyasının aşağıdakı əsaslarda: idarəetmədə prioritetlərin təyin olunması; bütün səviyyələrdə keyfiyyətin layihələndirilməsi; təhsil prosesinin bütün subyektlərinin keyfiyyətinin nəzarətə cəlb edilməsi; tərbiyəçilərin ixtisaslarının artırılmasının yenidən nəzərdən keçirilməsi vacibdir.

***İdarəetmədə prioritetlər.*** Müəssisədə məktəbəqədər yaşlı uşaqların təlim keyfiyyətinin yüksədilməsi üzrə təlim-tərbiyə prosesinin rəhbərlik tərəfindən nizamlanması üç istiqamətdə həyata keçirilir:

*Birinci istiqamət:* uşaq bağçasının təlim-tərbiyə xidmətlərinin keyfiyyətinin nizamlanması (effektiv strategiyaların seçilməsi və həyata keçirilməsi, səmərəli texnologiyaların həyata keçirilməsi);

*İkinci istiqamət:* pedaqoji tərkibin (tərbiyəçilərin peşəkarlığının) keyfiyyətinin nizamlanması;

*Üçüncü istiqamət:* məktəbəqədər təhsil konsepsiyasının tələblərinə uyğun olaraq inkişafetdirici, zənginləşdirici və sağlamlaşdırıcı mühitin keyfiyyətinin nizamlanması.

***Bütün səviyyələrdə keyfiyyətin layihələndirilməsi.***

İdarəetmənin I səviyyəsi - uşaq bağçasının müdiriyyəti;

İdarəetmənin II səviyyəsi - pedaqoji kollektiv;

İdarəetmənin III səviyyəsi - uşaqlar və onların valideynləridir.

Bütün səviyyələrdə "Tədris prosesinin keyfiyyəti" anlayışı müxtəlif cür izah olunur.

***I səviyyədə*** **rəhbərlər** üçün tərbiyəçilərin valideynlərlə fəaliyyətinin yüksək qiymətləndirilməsi, bununla da, məktəbəqədər təhsil müəssisəsinin inkişaf və fəaliyyəti faktoru kimi uşaq bağçasının etibarının yüksəldilməsi; uşaqların sağlamlığının qorunması; uşaqların inkişafı və təlimində pedaqoqların nailiyyətləri; tədris proqramının tam mənilsənilməsi, uşaqların məktəbə keyfiyyətli hazırlığı nəzərdə tutulur.

***II səviyyədə*** **tərbiyəçilər** üçün – onların fəaliyyətlərinin müəssisə rəhbərliyi və valideynlər tərəfindən yüksək (müsbət) qiymətləndirilməsi; tədris proqramının bütün uşaqlar tərəfindən uğurla mənimsənilməsi; tərbiyə, tədris və sağlamlıq prosesinin optimallaşdırılması; təlim prosesində uşaqların uğurlu inkişafı; uşaqların təlim vaxtı və tərbiyəçinin iş vaxtından rasional istifadəsi; pedaqoji prosesin bütün lazımi vəsait və avadanlıqlarla təchiz olunması məsələləri öz əksini tapmalıdır.

***III səviyyəyə*** **uşaqlar** üçün – təlimin onlar üçün maraqlı olan oyun formasında; valideynlər üçün – uşaqların səmərəli təlimi; onların bacarıq və qabiliyyətlərinin inkişafı, yəni uşaqları

məktəbə yaxşı hazırlayan proqramlar üzrə təlim məsələləri daxildir.

***Tərbiyəçilərin peşəkarlığının yüksəldilməsi.***

Məktəbəqədər müəssisənin tərbiyəçilərinin fəaliyyəti bu gün bir neçə il bundan əvvəlkindən fərqlənir.Tərbiyəçi bazar iqtisadiyyatı şəraitində işləməyi bacarmalı və başa düşməlidir ki, yalnız yüksək peşəkarlıq, yaradıcılıq və təşəbbüskarlıq ona öz yerini tapmağa, özünü təsdiq etməyə kömək edə bilər. Bu günün tərbiyəçisi yeni ictimai məqsədlərə və uşaq haqqında elmin inkişaf səviyyəsinə uyğun pedaqoji texnologiyalar şəraitində öz ixtisasını təkmilləşdirməlidir.

Məktəbəqədər təhsilin keyfiyyəti inteqrativ xarakter daşıyır:

1.Minimum məktəbəqədər təhsil standartlarının tətbiqinin təmin edilməsi məktəbəqədər təhsil müəssisələrində təhsil prosesinin keyfiyyəti, uşağın təhsil prosesinin subyekti kimi zəmanətli təhsil səviyyəsinə çatmasına hər uşağa şərait yaradır və növbəti təhsil pilləsinə - ibtidai təhsilə keçidi təmin edir.

2. Təhsil subyektlərinin müxtəlif kontekstlərdə qarşıya məqsəd qoymaq və ona çatmaq bacarığını:

✓ uşağın hərtərəfli və yaşa uyğun düzgün inkişafı, sağlamlığının mühafizəsi;

✓ məktəbəqədər təhsil müəssisələrində fəaliyyət göstərən rəhbər və tərbiyəçilərin şəxsi peşəkarlıq səviyyələrinin keyfiyyəti;

✓ məktəbəqədər təhsil sisteminin keyfiyyətli idarəedilməsini təmin edir.

3. Maraqlı tərəfləri (xüsusən valideynləri) qane edən, onların tələblərinə və müvafiq dövlət normativlərinə cavab verən məktəbəqədər təhsilin nəticələrinin keyfiyyətini əsas götürür.

4. Məktəbəqədər təhsil müəssisəsində təhsilin nəinki real, həmçinin potensial keyfiyyətinin təkmilləşdirilməsinə çalışmaq və nail olmağı tələb edir.

Məktəbəqədər təhsilin keyfiyyəti – uşaq bağçasında monitorinqin obyektidir və dörd formada özünü göstərir.

1.Təhsil prosesinin keyfiyyəti (məzmun, işin təşkili, uşaqlar, pedaqoji işçilər, tərbiyəçilərlə uşaqların qarşılıqlı fəaliyyəti və təsiri).

2.Resurslarla təminatin səviyyəsi (təhsil prosesi üçün vacib olan resurslar və şərait).

3.İdarəetmənin keyfiyyəti.

4.Məktəbəqədər təhsil müəssisəsində təlim-tərbiyə işinin nəticəsinin keyfiyyəti.

Uşaq bağçalarında məktəbəqədər təhsilin keyfiyyəti – idarə olunan prosesdir, bütün pedaqoji kollektivin işinin nəticəsidir. Metodik işin idarə edilməsi təlim prosesinin bütün iştirakçılarının məqsədyönlü, şüurlu qarşılıqlı təsirini təqdim edir. Metodik işin idarə edilməsinin əsas məqsədi – optimal nəticələrə nail olmaq üçün güc, vasitə, vaxt və kadr resurslarından səmərəli və planauyğun istifadə edilməsidir. Belə təşkil olunmuş fəaliyyət təlim-tərbiyə vəzifələrinin realizə olunmasında sistemliliyi, varisliyi təmin etməyə, iş prosesində təkrarlardan qaçmağa, kollektivin yenilikçi işinin keyfiyyətli təhlilinə və müəssisənin sonrakı fəaliyyətinin istiqaməti və perspektivini müəyyənləşdirməyə imkan verir.

Beləliklə, məktəbəqədər təhsilin keyfiyyəti-məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətinin effektivliyinin ümumiləşdirilmiş ölçüsüdür, təqdim olunan təhsil xidmətləri istifadəçinin tələbatını ödəyir, ümidlərini doğruldur, dövlətin və cəmiyyətin tələblərinə cavab verir.

## Uşaqların inkişafının izlənilməsinə imkan yaradılması

Məktəbəqədər təhsil proqramında (kurikulumunda) uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsi üzrə işin məzmunu bilavasitə bir subyekt kimi təlim alanlara yönəldilmişdir. Uşaq şəxsiyyətinin bütün parametrlərdə inkişaf istiqamətləri diqqət mərkəzində saxlanılmışdır.

Uşaqlar dəstəkləyici, təhlükəsiz, böyüklərin onlara qarşı sevgisinin ifadə edildiyi, onlara qarşı hörmət və diqqətin kifayət qədər olduğu və fəaliyyət göstərməyə stimulun yaradıldığı mühitdə inkişaf edərlərsə, onların hərtərəfli, holistik və tam balanslı inkişafını təmin etmək və izləmək olar. Lakin uşaq onun təlim ehtiyaclarının ödənilmədiyi bir mühitdə böyüyürsə və onun inkişaf xüsusiyyətlərinə uyğun olmayan təlim strategiyalarından istifadə edilirsə, onun hüquqları təmin edilmirsə, o zaman uşağın inkişafı "natamam" və ya birtərəfli olacaqdır. Məsələn:

- ✓ Əgər uşaq kifayət qədər qidalanmırsa, fiziki cəhətdən düzgün inkişaf etmir;
- ✓ Əgər uşağa kifayət qədər stimulyasiya və təlim verilmirsə, bu onların idraki inkişafına mənfi təsir göstərəcəkdir.

Əgər uşaqlar sevgi və dəstəkləyici mühitdə böyümürlərsə və yaxud da, onlar biganəlik və emosional təhqir mühitində böyüyürlərsə, o zaman onların sosial-emosional inkişaf səviyyəsi zəif olacaqdır.

Uşağın inkişafının izlənilməsi üçün ən səmərəli yollardan biri *təbii şəraitdə-evdə, məktəbəqədər müəssisədə, məktəbəqədər müəssisədən kənar mühitdə uşağın müşahidə edilməsi* və müvafiq qeydlərin aparılmasıdır. Müşahidə və qeydlərin aparılması yolu ilə tərbiyəçilər uşaqlar haqqında məlumat əldə edib onun fəaliyyətini planlaşdırmalı, uşaqların ailəsi ilə paylaşmaq üçün ondan istifadə etməlidirlər.

Məktəbəqədər yaşlı uşaqlarda idraki, kommunikativ bacarıqların, fiziki inkişafın, şəxsi gigiyena və özünəxidmət bacarıqlarının formalaşması uşaqların fərdi inkişafının nəzərə alınaraq dəyərləndirilməsi və bunun əsasında onların obyektiv qiymətləndirilməsini zəruri edir. Bu səbəbdən, məktəbəqədər təhsil proqramında inkişaf sahələri və yaş dövrlərinə uyğun müəyyənləşdirilmiş məzmun standartlarındakı minimum tələblərə uşaqlar tərəfindən necə nail olunmasının izlənilməsi çox əhəmiyyətlidir. Ona görə də məktəbəqədər təhsildə uşaq inkişafının izlənilməsi əsasında aparılan qiymətləndirmə təhsil prosesinin mühüm elementlərindən biri hesab olunur. İnkişafın izlənilməsi və dəyərləndirilməsi zamanı müxtəlif üsul və vasitələrdən istifadə etməklə, inkişaf sahələri üzrə uşağın inkişafındakı irəliləmə və geriləmə müəyyən edilir, nəticələr qeyd olunur. Qeyd olunmuş məlumatlar əsasında uşağın hər hansı inkişaf sahəsi üzrə ümumi inkişaf və təlim nəticələrinə nail olmaması müəyyən edildikdə həmin istiqamət üzrə tərbiyəçi müəyyən mövzular və tapşırıqlar vasitəsilə geriləməni aradan qaldırmalı və uşağın inkişafını düzgün istiqamətləndirməlidir.

İnkişaf sahələri üzrə məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara nail olmaq üçün hər bir uşağın fəaliyyəti müntəzəm olaraq stimullaşdırılmalı, onların standartları daha yüksək səviyyədə mənimsəmələri üçün zəruri şərait yaradılmalıdır. Tərbiyəçi hər bir uşağın inkişafına çalışmalıdır. Tərbiyəçinin uşaqların inkişafındakı irəliləmələri izləməsi və bunu diqqət mərkəzində saxlaması uşaqların ümumi inkişafını sürətləndirir.

Uşaqların inkişafının izlənilməsi hər bir uşağa fərdi qayda-da tətbiq edilir və uşaqların nitqində, böyük, kiçik və hissi motor bacarıqlarının inkişafında ləngimələrin aşkar edilməsi uşağın müntəzəm qiymətləndirilməsinin müəyyənləşdirilməsinə şərait

yaradır. Tərbiyəçinin uşağı izləmə zamanı əldə etdiyi məlumatları məqsəd kimi nəzərdən keçirməsi, onlardan etibarlı nəticələr kimi istifadə etməsinə şərait yaradır.

Qiymətləndirmə zamanı uşağın hərəkət və davranışları, müəyyən şəraitdə fəaliyyətinin nəticələri qiymətləndirmənin obyektinə çevrilir ki, bu zaman aşağıdakılar nəzərə alınmalıdır:

*-qiymətləndirmə zamanı uşağın hərtərəfli inkişafının nəzərə alınması;*

*-uşaqların özləri və yoldaşlarının nailiyyətlərinin qiymətləndirilməsi prosesində iştirak etmələri;*

*-uşağın valideynləri və xüsusi təhsil mütəxəssisləri ilə mütəmadi olaraq əlaqə saxlanılması;*

*-hər hansı uşaq haqqında toplanılan məlumatların uşağa məxsus olduğunu nəzərə alaraq bu məlumatların yalnız uşağın ailə üzvləri ilə bölüşdürülməsi;*

*-uşaqlar arasında müqayisə aparılmaması;*

*-hər bir uşağın nailiyyətlərinin müntəzəm olaraq izlənilməsi;*

*-mövcud və əvvəlki nəticələr arasında müqayisə aparılmaqla irəliləyişə nail olunması.*

## Standartların mahiyyəti, məzmunu və inteqrativliyi

Məktəbəqədər təhsil proqramının (kurikulumunun) məzmunu standartlar şəklində ifadə olunur. Məzmun standartları uşaqların bilik və bacarıq səviyyələrinə qoyulmuş dövlət tələbi olmaqla gözlənilən ümumi təlim nəticələrini reallaşdırır.

Standartlar dövlət tələbidir. Standartlar bütün yaş qrupları üçün eynidir. Alt standart isə əsas standartlarda ifadə olunmuş fikrin müəyyən hissəsidir.

Hər yaş qrupuna uyğun olaraq alt standartlar tədricən mürəkkəbləşir.

Hər bir standart bilik və fəaliyyətdən ibarətdir. Burada məzmun uşaqların nə öyrənəcəyini, yəni bilik hissəsini, fəaliyyət isə uşağın öyrəndiyini necə nümayiş etdirəcəyini bildirir. Məsələn, 3-4 yaş dövründə (yəni orta qrupda) "2.2.1. Üç dairəsində sayma, hesablama əməliyyatları yerinə yetirir. *Üç dairəsində sayma, hesablama əməliyyatları* **bilik** və *yerinə yetirir* – **isə fəaliyyət** hissəsidir. Bütün fəaliyyətlərdə uşağın təfəkkür fəallığının inkişaf etdirilməsi, psixomotor bacarıqların formalaşdırılması zəruri tələb kimi diqqət mərkəzində saxlanılmışdır. Deməli, məzmun standartları birtərəfli deyildir, o, bilik hissəsinin təcrübədə tədqiq olunaraq bacarığa çevrilməsini təmin edir. Bütün bunlar isə məzmun standartlarında qoyulmuş bütün biliklərin bacarıqlar formasında möhkəmləndirilməsinə səbəb olur ki, bu da uşaqlarda kompetensiyaların formalaşıb möhkəmləndirilməsinin əsasını qoyur.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) inteqrativ xarakter daşıyır. Bu, ilk növbədə, uşaqların ibtidai təhsil üçün hazırlanması və uşaq şəxsiyyətinin formalaşmasına imkan yaratması, onlarda sadə həyati bacarıqların formalaşması ilə bağlıdır. Ona görə də məktəbəqədər təhsil proqramında (kurikulumunda) verilən standartlar biri digərini tamamlamaq, möhkəmləndirmək, davam etdirmək baxımından elə ardıcıllıqla verilir ki, onların vasitəsilə uşaq şəxsiyyətinin formalaşması və inkişafını izləmək mümkün olur. Məktəbəqədər təhsil proqramında (kurikulumunda) təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələrinin qurulması əsas prinsiplərdən olan inteqrasiyanın şaquli və üfüqi inteqrasiya formasında sistemləşdirilməsini təmin edir. Şaquli inteqrasiyada yaş qrupları və inkişaf sahələri arasındakı əlaqə, ardıcıllıq və sistemlilik, üfüqi inteqrasiyada isə hər yaş

dövrü üzrə müxtəlif inkişaf sahələri üzrə əsas və alt standartlar arasındakı əlaqəlilik və ardıcıllıq təmin olunur.

Bütün hallarda uşaqların inteqrativ standartlar əsasında bacarıqlara yiyələnməsi diqqət mərkəzində saxlanılır. Məzmun yaş qrupuna uyğun olaraq sadədən mürəkkəbə prinsipi əsasında məntiqi ardıcıllıq və sistemlə müəyyənləşdirilmişdir. Məktəbəqədər təhsilin sonunda ümumi təlim nəticələri (kompetensiyalar) təqdim olunmuşdur ki, burada da ibtidai məktəblə məktəbəqədər təhsil pilləsi arasındakı varislik gözlənilmişdir.

İnteqrasiyanın təmin olunması üçün inkişaf sahələrinin əlaqələndirilməsi və bununla da inteqrativ təlim aparmaqda tərbiyəçilərə daha geniş imkanların yaradılması vacibdir. Məktəbəqədər təhsil proqramı (kurikulumu) elə standartlardan təşkil olunubdur ki, burada bir mərhələdən digərinə keçid daxili məntiq və məzmun prinsipləri ilə bərabər, mövzuların ardıcıllığına əsaslanır. Burada uşaqların növbəti yaş qrupunda nisbətən mürəkkəb məlumatları mənimsəmək üçün xüsusi biliyin olub-olmaması nəzərdə tutulur. Sadə və konkret anlayışlardan daha mürəkkəbə keçidi alt standartlarda müşahidə etmək olur. Yaş qrupu artdıqca, verilən biliyin məzmunu mürəkkəbləşir, yəni bütün alt standartlar yaş dövrləri artdıqca sadədən mürəkkəbə doğru inkişaf edib mürəkkəbləşir. Alt atandartların bu cür dəyişib, mürəkkəbləşməsi uşaqların inkişaf dinamikasını izləməyə imkan verir. Burada asandan çətinə prinsipi əsas götürülmüşdür.

Eyni zamanda alt standartların yaş dövrlərinə uyğun olaraq dəyişməsi bütün inkişaf sahələri və məşğələlər arasında inteqrasiyanın yaranması və möhkəmlənməsinə səbəb olur.

Deyilənlərin aydın olması üçün nümunəyə nəzər salaq. Məsələn: *Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik* inkişaf sahəsi üzrə standartlara nəzər salaq.

| İnkişaf sahələri | Məzmun standartları | Alt - standartlar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **1. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik** | ***1.1.Sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir.*** | **3-4 yaş** | İnkişaf sahələri arasında inteqrasiya | **4-5 yaş** | İnkişaf sahələri arasında inteqrasiya | **5-6 yaş** | İnkişaf sahələri arasında inteqrasiya |
| | | **1.1.2**. Orqanizmin möhkəmləndirilməsi prosedurlarından normalara[2] uyğun istifadə edir. | **S.e. 4.1.2.; 4.4.1.** | **1.1.2**. Orqanizmin möhkəmləndirilməsi prosedurlarından normalara[3] uyğun istifadə edir. | **S.e.4.1.1.; 4.1.2.** | **1.1.2**. Orqanizmin möhkəmləndirilməsi prosedurlarından normalara[4] uyğun istifadə edir. | **S.e.4.2.2.; 4.3.2.** |
| | | **1.1.3.** Sadə özünəxidmət vərdişləri (soyunmaq,geyinmək, yemək, yuyunmaq) nümayiş etdirir. | **Es. 3.3.1.; S.e.4.1.1.; F.in. 1.2.2.** | **1.1.3.** Özünəxidmət vərdişləri (paltarlarını geyinibsoyunmaq, səliqə ilə yerinə yığmaq, xırda məişət işlərini yerinə yetirmək) nümayiş etdirir. | **Es. 3.3.1. S.e.4.1.2.** | **1.1.3.** Özünəxidmət vərdişləri (yatağını, xarici görünüşünü səliqəyə salmaq; təmizliyə ria yət etmək) nümayiş etdirir. | **S.e.4.3.2.; 4.1.1. Es.3.3.1.; 3.3.2.** |

[2] Yay vaxtı bütün yaş qrupları üçün ümumi duş qəbul etmə yeməkdən qabaq aparılır. Ayaqları üzərindən gah isti, gah da nisbətən aşağı temperaturda su axıdılır. Ümumi su prosedurlarından bütün bədənə su axıtmağa keçilir. Suyun ilkin temperaturu 34-35°, 2-3 gündən bir 1° azaldılaraq son temperatur 26-24° -dək endirilməlidir. Hava vannası qəbul edərkən havanın temperaturu 23°-dən artıq olmamalıdır.

[3] Ayaqlara su tökülməsi prosedurlarını fərqli temperaturlu su ilə təşkil edilir.( 34-35°, 2-3 gündən bir 1° azaldılaraq, son temperatur 26-24° -dək endirilməlidir) İsti suyun temperaturunu tədricən +37°-dək qədər qaldırmalı, soyuq suyun temperaturunu isə + 18°-dək ağağı salmaq.Yerli su prosedurlarında havanın temperaturu +20°-dən az olmamalıdır. Ümumi su prosedurlarında suyun ilkin temperaturu 34-35°, 2-3 gündən bir 1° azaldılaraq, son temperatur 24-22°-dək endirilməlidir. Hava vannası qəbul edərkən havanın temperaturu 23°-dən artıq olmamalıdır.

[4] Ümumi su prosedurlarında suyun ilkin temperaturu 34-35°, 2-3 gündən bir 1° azaldılaraq, son temperatur 24-22° -dək endirilməlidir. Qış fəslində orta və böyük qruplarda bu proseduru +26° olan su ilə davam etdirmək olar.Hava vannası qəbul edərkən havanın temperaturu 23°-dən artıq olmamalıdır.

Göründüyü kimi, 1.1.2. kodlu alt-standart digər inkişaf sahələri ilə inteqrasiya olunur. İnteqrasiya uşaqların ətraf aləmin müxtəlif aspektlərini ayrı-ayrı məşğələlərə aid olan məzmun vasitəsilə sadə tədqiqini təmin edir. Konkret olaraq inteqrativ məzmun aşağıdakılara nail olmaqda tərbiyəçi və uşaqlar üçün imkanlar açır:

-məsələlərə qlobal yanaşma;

-anlayışların əlaqələndirilməsi;

-məşğələ və mövzuların birləşdirilməsi;

-eyni zamanda müxtəlif resurslardan istifadə;

-uşaqların bilik və bacarıqlarının həyati məsələlərlə əlaqələndirmək imkanı;

-uşaqların problem ətrafında birlikdə əməkdaşlıq edərək problemi həll etməyin yollarını öyrənmələri və s.

## Standartların qabaqlayıcı funksiya daşıması

Məktəbəqədər təhsilin proqramı (kurikulumu) qabaqlayıcı xarakter daşıyır. Bu, onun konseptuallığından irəli gəlir. Məktəbəqədər təhsil proqramı (kurikulumu) bütün təlim nəticələrini əks etdirməklə son nailiyyətləri təsəvvür etməyə imkan verir. Öyrənmə prosesində əldə edilən nailiyyətin hansı səviyyədə olmasını müəyyənləşdirmək üçün müvafiq şərait yaranır.

Bütün bunlarla yanaşı, məktəbəqədər təhsil proqramı (kurikulumu) aşağıdakı məsələləri əhatə edir:

- müxtəlif bacarıqların öyrənilməsini nəzərdə tutan balanslaşdırılmış yanaşmanı əhatə edir;
- fəal təlim üsullarından istifadə etməklə məzmun standartlarının səviyyəsinə çatmağa imkan yaradır;

- uşaqların inkişafının və təlim nəticələrinin qiymətləndirilməsini, il ərzində düzəlişlərin edilməsini nəzərdə tutur;
- uşaqların təlim prosesinə cəlb edilməsini və həvəsləndirilməsini təmin edir;
- müvafiq təlim resurslarına malik olur.

Bu səciyyəvi cəhətlər onu əvvəlki proqramlardan fərqləndirir.

Məktəbəqədər təhsil pilləsində öyrədiləcək məzmun proqramda hər yaş qrupu üçün dörd inkişaf sahəsi üzrə məzmun standartları şəklində təqdim edilir. Məzmun standartları uşaqların bilik və bacarıq səviyyələrinə qoyulmuş dövlət tələbidir və onlar məktəbəqədər təhsil dövrünün sonu üçün müəyyənləşdirilmiş ümumi təlim nəticələrinin reallaşmasını və uşaqların həmin nəticələrə nali olmalarını təmin edir.

Məzmun standartları əsas və alt-standartlara ayrılır. Əsas standartlar 3-6 yaş üçün ümumi verilir. Alt-standartlar isə nisbətən konkret təlim nəticələri olub hər yaş qrupunda uşağın əldə etməli olduğu bilik, bacarıq və dəyərləri ifadə edir.

Məzmun standartlarının funksiyaları aşağıdakılardır:

- *inkişaf sahələri üzrə müəyyən olunan təlim nəticələri bütün yaş dövrləri üzrə ümumi şəkildə ifadə edilir;*

- *məktəbəqədər təhsilin sonunda inkişaf sahələri üzrə summativ qiymətləndirmənin aparılmasında istifadə edilir.*

Alt-standartların funksiyaları aşağıdakılardır:

- *təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır;*

- *təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır;*

- *təlimdə inteqrativliyi təmin edir;*

- *təlimin məzmununun ardıcıl və davamlı inkişafını təmin edir.*

Məktəbəqədər təhsil proqramı (kurikulumu) ***nəticəyönümlüdür.***

Nəticəyönümlülük məktəbəqədər təhsil proqramının (kurikulumunun) hazırlanmasında nəzərə alınan mühüm didaktik prinsiplərdən biridir. Təlim prosesində əldə olunacaq nəticələrin əvvəlcədən müəyyən edilməsi və onun məzmuna gətirilməsi bu prinsipin başlıca cəhətlərindən biri kimi dəyərləndirilir. Nəticəyönümlülük, ilk növbədə, təlim fəaliyyətinə əsaslanır, bütövlükdə təlim prosesinin mahiyyətini təşkil edən son nəticəni görməyə imkan verir. İlk növbədə, məzmunu ifadə edən belə ümumi nəticələr dövlət tərəfindən təsdiq olunur.Azərbaycanda inkişaf sahələri üzrə ümumi təlim nəticələri Azərbaycan Respublikası Nazirlər Kabineti 16 iyul 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsilin dövlət standartları və proqramı (kurikulumu)" sənədində verilmişdir.

Məktəbəqədər təhsil proqramında (kurikulumunda) məktəbəqədər təhsil pilləsinin sonu üçün nəzərdə tutulan aşağıdakı ümumi inkişaf və təlim nəticələrinə nəzər salaq.

- sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir;
- qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir;
- böyük, kiçik və hissi (sensor)-motor hərəkətlərini koordinasiya edir;
- təhlükəsizlik qaydalarına əməl edir;
- nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir;
- sadə riyazi-məntiqi əməliyyatları yerinə yetirir;
- əşya və hadisələr haqqında ilkin təsəvvürlərə malikdir və anlayışları izah edir;
- səbəb-nəticə əlaqələrini müəyyən edir və fərziyyələr irəli sürür;
- sadə təqdimatlar edir;

• sosial və mənəvi dəyərlərə öz münasibətini bildirir;

• insanlara qarşı hörmət və dözümlülük (tolerantlıq) nümayiş etdirir;

• özündən kiçiklərlə, həmyaşıdları və böyüklərlə qarşılıqlı ünsiyyət qurur;

• sosial normaları dərk edir və davranışında ona riayət edir;

• sadə əmək bacarıqları nümayiş etdirir;

• sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir;

• özünüdərk bacarıqları nümayiş etdirir;

• mədəni-estetik təsəvvürlərə malikdir və yaradıcılıq bacarıqları nümayiş etdirir.

Bu nəticələr məktəbəqədər təhsil pilləsi üçün milli səviyyədə müəyyənləşdirilmişdir ki, onlar respublikada məktəbəqədər təhsilin məzmununu ifadə edir. İnkişaf sahələri və yaş qrupları üzrə hazırlanmış nəticələr isə ümumi təlim nəticələrinə uyğun xüsusi nəticələr kimi təsdiq olunur.

İnkişaf və təlim standartları bölməsində təqdim edilən məzmun standartları ümumi təlim nəticələrinin reallaşmasına xidmət edir və standartlarda qoyulmuş tələblər bilik formasında uşaqlar tərəfindən mənimsənilərək təcrübədə artıq bacarıqlara çevrilir. Bu isə uşaqların inkişafını izləmək, istiqamətləndirmək üçün qiymətləndirmə aparmaq baxımından əhəmiyyətlidir. Ümumi nəticələr bütün inkişaf sahələri üzrə hər bir yaş dövrünə uyğun mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret hissəsi olduğundan onlar həm məzmunu müəyyənləşdirir, həm də uşaqların əldə etdiyi nailiyyətlərin dəyərləndirilməsinə şərait yaradır.

Məktəbəqədər təhsil proqramına (kurikulumuna) görə uşaqlar lazımsız informasiya ilə yüklənmir, gələcək həyat fəaliyyətində ona lazım olacaq ən zəruri ilkin həyati bacarıq və qabiliy-

yətlərin yaradılması istiqamətində iş aparılır, bacarıq və vərdişlər aşılanır, qabiliyyətlərin formalaşması ön plana çəkilir.

***Tərbiyəçilər məzmun standartlarının reallaşdırılması zamanı aşağıda qeyd olunan məsələlərə diqqət yetirməlidirlər:***

- *hər bir yaş mərhələsində mənimsənilməsi əvvəlcədən nəzərdə tutulmuş ümumi təlim nəticələrinə nail olunması, məzmun standartlarının reallaşdırılması üçün mövzuların düzgün müəyyənləşdirilməsi;*
- *hər yaş dövrünün sonunda uşaqların bilik və bacarıq səviyyələrinin məzmun standartlarında qoyulan tələblərə cavab verməsi;*
- *məzmun standartlarındakı biliklərin uşaqlar tərəfindən mənimsənilməsi və təcrübəyə tətbiq olunaraq həmin biliklərin bacarıqlara çevrilməsi;*
- *təlim məqsədlərinin alt-standartlara uyğun olaraq düzgün müəyyənləşdirilməsi;*
- *hər bir məzmun standartından bir neçə mövzunun, çıxarılması.*

Məsələn, 4-5 yaşlılar qrupunda (böyük qrupda) idrakın inkişafı üzrə təqdim edilən *"2.3.3. Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir."* standartı əsasında standartda verilən obyektlərlə tanışlıq üzrə bir çox məşğələ planlaşdırılır. Planlaşdırma həm müvafiq yaş qrupunun, həm də ayrı-ayrı uşaqların inkişaf səviyyəsini nəzərə alaraq müəyyən zamanda təlim və tərbiyənin vəzifələrini konkretləşdirməlidir. Mövzular planlaşdırılarkən xronoloji, sadədən mürəkkəbə və məntiqi ardıcılllığın gözlənilməsinə əməl olunmalıdır.

## Standartların strukturu və verilmə ardıcıllığı

Qeyd edildiyi kimi, məktəbəqədər təhsil proqramında (kurikulumunda) hər bir inkişaf sahəsinin məzmunu standartlar şəklində ifadə olunur. Məzmun standartları uşaqlardan gözlənilən ümumi təlim nəticələrini məşğələnin imkanları baxımından xüsusiləşdirir.Standartlar öyrədiləcək məzmundan xəbər verir və bacarığın xüsusiyyətini göstərir. Yəni nəyin öyrədiləcəyini və öyrədilənlərin necə nümayiş etdiriləcəyi aydın təsvir edilir. Hər bir standart hər yaş qrupuna uyğun olaraq alt-standartlarla müşayət edilir.

Alt-standartları aşağıdakı kimi səciyyələndirmək olar:

- Alt-standartlarda ümumi məzmun konkret məzmuna bölünür.
- Alt-standartlar təlim məqsədlərinin müəyyən olunması üçün zəmin olan komponentləri əks etdirir.
- Yaş qrupları artdıqca alt-standartlar dəyişir.

Bu xüsusiyyətlərin hər birini daha ətraflı nəzərdən keçirək.

Məzmun alt-standartlarda hissələrə bölünür. Məktəbəqədər təhsilin kurikulumunda müəyyən edilmiş təlim nəticələri məşğələnin səciyyəvi cəhətlərindən çıxış edərək, xüsusiləşdirilsə də, ayrı-ayrı mövzuların təlim məqsədlərinin müəyyənləşməsi üçün onların ümumiliyi saxlanılır. Bu ümumilik müxtəlif təlim məqsədlərinə nail olunarkən, həmin standartlara dəfələrlə müraciət etmək imkanını genişləndirir. Məktəbəqədər təhsilin hər hansı yaş dövrü üçün müəyyənləşdirilmiş məzmun standartı müxtəlif mövzuların tədrisi zamanı təlim prosesinin hədəfinə çevrilir. Ümumiliyin qorunub saxlanması məzmun standartlarında məzmun mürəkkəbliyi yaradır. Bu mürəkkəbliyə alt-standartlarda aydınlıq gətirilir. Mürəkkəb məzmunun sadə məzmunlara bölünməsi tərbiyəçinin fəaliyyətinin düzgün təşkilinə şərait yaradır.

Məsələn, İdrakın inkişafı – inkişaf sahəsi üzrə (3-4 yaş) məzmun standartının alt-standartlarda sadə fikirlərə necə bölündüyünə nəzər salaq:

***2.2. Sadə riyazi təfəkkür əməliyyatları yerinə yetirir.***

2.2.1. Üç dairəsində sayma, hesablama əməliyyatları yerinə yetirir.

2.2.2. Həndəsi fiqurları (dairə, üçbucaq) tanıyır.

2.2.3. Əşyaları müəyyən əlamətinə (forma, ölçü, rəng, kəmiyyət) görə fərqləndirir və müqayisə edir.

2.2.4. Əşyalar, həndəsi fiqurlar və rəqəmlərlə sadə əməliyyatlar (toplama, az-çox, uzun- qısa, böyük-kiçik, hündür-alçaq) yerinə yetirir və s.

"Sadə riyazi təfəkkür əməliyyatları" kimi ifadə edilmiş məzmun alt-standartlarda konkretləşdirilərək təlimin tərbiyəçi tərəfindən düzgün təşkil edilməsinə yardımçı olur. Alt-standartlardan aydın olur ki, uşaq üç dairəsində saymağı, həndəsi fiqurları (dairə, üçbucağı) tanımağı, əşyaları müəyyən əlamətinə görə fərqləndirməyi, əşyalar, həndəsi fiqurlar və rəqəmlərlə sadə əməliyyatlar aparmağı və s. bacarmalıdırlar.

Alt-standartlar məzmun komponenti üzrə sadələşdirildiyi kimi, fəaliyyət komponenti üzrə də aydınlaşdırılır. Alt-standartlar təlim məqsədlərinin müəyyən olunması üçün zəmin olan komponentləri əks etdirir.

Standartlar kodlaşdırılarkən, birinci rəqəm inkişaf sahəsini bildirir. İkinci rəqəm əsas standartı, üçüncü rəqəm isə alt-standartı bildirir. Məsələn, 3-4 yaş, yəni, orta qrupda belə bir standarta nəzər salaq.

***2.3.4. Problemin həllində sadə yolları tapır və onlardan istifadə edir.***

Deməli, bu kodlaşmada istifadə olunan 2 rəqəmi ikinci inkişaf sahəsi olan idrakın inkişafını, həmin inkişaf sahəsinin üçüncü əsas standartının dördüncü alt-standartını bildirir.

Digər bir nümunəyə nəzər salaq. Məktəbəhazırlıq (5-6 yaş) qrupunda belə bir standarta nəzər salaq və onun kodunu izah edək.

***4.1.1.Arzu və istəklərini özünəməxsus tərzdə icra edir.***

Deməli, dördüncü inkişaf sahəsi olan sosial-emosionalın birinci əsas standartının ikinci alt-standartıdır.

Alt-standartların dəyişən və artan inkişaf xəttini həmin alt-standartların hər yaş qrupu üzrə ardıcıllığına baxdıqda daha aydın görmək olur. Bunun üçün "İdrakın inkişafı" – inkişaf sahəsinə nəzər salaq. 3-4 yaşlılardan ibarət orta qrupda ***2.2. Sadə riyazi təfəkkür əməliyyatları yerinə yetirir.***-standartının birinci alt-standartı - 2.2.1. Üç dairəsində sayma, hesablama əməliyyatları yerinə yetirir.- kimi təqdim olunur.

Böyük qrupda (4-5 yaş) bu alt-standart aşağıdakı kimi ifadə olunmuşdur:

***2.2.1. Beş dairəsində sayma, hesablama və ölçmə əməliyyatları yerinə yetirir.***

Artıq məktəbəhazırlıq qrupunda (5-6 yaş) artıq məzmun mürəkkəbləşərək, - 2.2.1. On dairəsində sayma, hesablama və ölçmə əməliyyatları yerinə yetirir.- kimi müəyyənləşdirilmişdir. Deməli, əgər 3-4 yaş dövründə əvvəlcə uşaq yalnız üç dairəsində sayma, hesablama əməliyyatları yerinə yetirirsə, 4-5 yaş dövründə bu say artaraq beş dairəsinə çatır, yəni, uşaqlar 5 dairəsində əşyaları sayıb, hesablayır və hətta bəzi ölçmə əməliyyatlarını da yerinə yetirirlər. Artıq məktəbəqədər yaş dövrünün sonunda- 5-6 yaş dövründə isə, uşaq on dairəsində əşyaların sayını, artıb-azalmasını hesablamağı və müəyyən həcmdə əşyalar üzərində ölçmə əməliyyatları yerinə yetirir.

Buradan sadədən mürəkkəbə prinsipi üzrə yüksələn inkişaf dinamikası aydın görünür.

Alt-standartların yaş qrupları üzrə sadədən mürəkkəbə doğru dəyişməsi uşaqların inkişaflarının düzgün getməsinə, eyni zamanda uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsi üçün imkan yaradır. Bunun da nəticəsində hər bir tərbiyəçi qrup uşaqlarının hansı standartlara cavab verdiyini, hansında isə zəif olduqlarını müəyyənləşdirərək, həmin o zəiflik, boşluq olan "hissəni" hər hansı tapşırıqla, yaxud fərdi yanaşma ilə bərpa etməyə çalışmalıdır.

## Təlim strategiyalarından istifadə

Qlobal dünyanın informasiya bolluğu şəraitində təhsilin vəzifələri dəyişir. Ağılın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Dünyanın təhsil məkanında sadəcə bilik, bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Belə bir dövrdə təhsil işçiləri digər sahələrdəki dəyişiklikləri dəstəkləyən bilik və bacarıqların yeni formalarını müəyyən etmək bacarıqlarını inkişaf etdirməlidirlər. Mövcud model artıq daim dəyişən, biliyə əsaslanan cəmiyyətin ehtiyaclarını ödəmir, çünki müasir baxımdan bilik real tələbatlara cavab verməli, o, inteqrasiya olunmuş və həyati bacarıqlara, fəaliyyətə əsaslanmalıdır. Burada ilk növbədə insanların dəyişən həyat şəraitlərinə uyğun təhsil almaq və baxışlarını dəyişdirmək qabiliyyətinin inkişaf etdirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasında həyata keçirilən təhsil islahatının məqsədləri içərisindən təhsilin keyfiyyətini yüksəltmək, onu cəmiyyətin ehtiyac və tələblərinə uyğun qurmaq əsas yer tutur. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesi-

nin cəmiyyətin müasir tələblərinə uyğun yenidən qurulması təlimin strategiyasının dəyişilməsi ilə müşayiət olunmalıdır. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesində qarşılıqlı fəaliyyətin üzə çıxarılması və uşaqların şəxsi potensialının stimullaşdırılması həlledici əhəmiyyət daşıyır. Odur ki, müasir təhsil təlim prosesinin daha da optimallaşdırılması və səmərəliliyinin artırılması üçün təlim strategiyaların təkmilləşdirilməsinin diqqət mərkəzində saxlanılmasını tələb edir. Məktəbəqədər müəssisələrdə təlim strategiyasında köklü dəyişiklik edilməlidir. Buna nail olmaq üçün sadəcə tərbiyə və təlim proqramının dəyişdirilməsi kifayət deyil, hər yaşın və məktəbəqədər təhsilin sonunda uşaqlara lazım olacaq bilik və bacarıqların müəyyən edilməsi vacib məsələlərdəndir.

Müasir təhsildən fərqli olaraq, ənənəvi təhsil sistemində təlim strategiyaları məsələlərinə diqqət yetirilmirdi. Təlim strategiyaları "mövqe", "yol" mənasını ifadə edir. Tərbiyəçinin təlim zamanı mövzuya uyğun olaraq müxtəlif mövqe və yollardan istifadə etməsi, uşaqların yeni öyrədilən bilikləri daha asanlıqla mənimsəmələrini təmin edir və təlimin səmərəliliyini yüksəldir. Təlim prosesində öyrədənin (tərbiyəçinin) hər hansı mövqedən çıxış edərək, öyrənənə (uşağa) öz aralarındakı qarşılıqlı ünsiyyət əsasında yeni materialı daha yaxşı mənimsətməsi nəzərdə tutulur. Bəzən təlim zamanı uşaqların maraq və ehtiyaclarının, bacarıqlarının nəzərə alınmaması onların ümumi inkişafına mənfi təsir göstərir ki, bu da uşaqların gələcək həyatlarında müstəqil fikir yürütmək, öz istəklərinə uyğun bacarıqlarını nümayiş etdirmək, müstəqil fəaliyyət göstərmək və həyatda öz yerlərini tutmaqda çətinlik çəkmələrinə səbəb olur. Buna görə də tərbiyəçilər təlimin bütün mərhələlərini uşaqların ümumi inkişafı, maraq və ehtiyacları çərçivəsində qurmaq üçün strategiyaları düzgün müəyənləşdirməlidirlər.

Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkili işin düzgün planlaşdırılmasından başlayır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək təlim işlərinin əvvəlcədən layihələşdirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

- *perspektiv* (illik) planlaşdırma;
- *cari* (həftəlik) planlaşdırma.

**Perspektiv (illik) planlaşdırma** standartların reallaşması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üçün işin planlaşdırılması üzrə aparılır. Məktəbəqədər təhsil proqramının (kurikulumunun) əsas istiqamətlərinə müvafiq olaraq müəyyən-ləşdirilmiş inkişaf sahələrinin planlaşdırılmasında inteqrativlik prinsipi ciddi şəkildə gözlənilir. Perspektiv planlaşdırma həm müvafiq yaş qrupunun, həm də ayrı-ayrı uşaqların inkişaf səviyyəsini nəzərə alaraq müəyyən zamanda təlim və tərbiyənin vəzifələrini konkretləşdirməlidir.

Perspektiv planlaşdırma müxtəlif yaş qrupuna və uşaqların ehtiyaclarına uyğun olaraq işin əsas mərhələlərini nəzərdə tutmağa icazə verir. Məktəbəqədər təhsil müəssisələrində işin planlaşdırılması uşaqların təlim-tərbiyə prosesinə təşkilati xarakter verir, tərbiyəçinin işini daha mənalı və nəticəli edir.

Məktəbəqədər yaşlı uşaqların bilik və bacarıqlarının genişlənməsinə onun məzmununun, həmçinin təlim-tərbiyənin metodlarının, məktəbəqədər yaşlı uşaqların inkişaf səviyyəsinin nəzərə alınması ilə fəaliyyətin təşkili formalarının tədricən mürəkkəbləşməsi kimi baxmaq lazımdır. Məzmunun tədricən mürəkkəbləşməsi məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin tamlığı üçün şəraiti təşkil edir.

Uğurlu və nəticəyönümlü təlim prosesinin təşkili əvvəlcə-dən mükəmməl hazırlanmış planlaşdırmadan asılıdır. Bu növ

planlaşdırma özündə tərbiyəçinin hər hansı inkişaf sahəsi üzrə nəzərdə tutulmuş yaş qrupu üzrə illik fəaliyyətini əhatə edir. Orada konkret yaş qrupu üzrə məzmun standartları, məşğələnin növü, bölmə, mövzular, inteqrasiya, resurs və tarix kimi məsələlər əhatı olunur. Perspektiv planlaşdırma hazırlamaq üçün tərbiyəçidə bir sıra bacarıqların olması vacibdir. Bölmə və mövzuların ardıcıllığının düzgün müəyyənləşdirilməsi mühüm bacarıqlardan biridir. Tərbiyəçi bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsiri nəzərə almalıdır.Təbii ki birinci prinsip məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə və asandan çətinə istiqamətində fəaliyyətin nəzərə alınmasıdır. Tərbiyəçi qrup üzrə fəaliyyətini planlaşdırarkən, bu nəticələrə yanaşmada müstəqildir. Zəruri olan hallarda onları müxtəlif səviyyələrdə inteqrasiya etməkdə sərbəstdir.

Bölmə və mövzuların ardıcıllığı planlaşdırılarkən aşağıdakılar nəzərə alınmalıdır:

- inkişaf sahəsi daxilində inteqrasiya;
- inkişaf sahələri arası inteqrasiya;
- ardıcıllığın (məntiqi, sadədən mürəkkəbə, xronoloji) gözlənilməsi.

Planlaşdırma aparmaq üçün lazım olan bacarıqlardan mühümü inteqrasiya imkanlarının müəyyən edilməsidir. Hər bir inkişaf sahəsinin digər inkişaf sahələri ilə inteqrasiyası mümkündür. Planlaşdırma aparılarkən mövzunun digər inkişaf sahəsi üzrə bu və ya digər mövzu ilə inteqrasiya imkanları müəyyən olunmalıdır. Məsələn, savad təlimi üzrə məşğələdə "A" hərfinin öyrədilməsi keçirilirsə, bu ana dili və ətraf aləmlə tanışlıq məşğələsində "Vətənim Azərbaycan!" mövzusu ilə, təsviri fəaliyyət, musiqi məşğələləri ilə əlaqə yaradaraq öyrədilməsi daha müsbət nəticələr verir.

Perspektiv planlaşdırma aparmaq üçün lazım olan bacarıqlardan biri də mövzuya uyğun resursların seçilməsidir. Uşaqlara tanış olmayan hadisələri, əşyaları yalnız quru sözlərlə aydınlaşdırmaq çətindir. Müxtəlif əyani vəsaitlər məktəbəqədər dövrdə xüsusilə mühümdür. Bu elə bir yaş dövrüdür ki, burada əyani vəsaitlərin rəngarəng və baxımlı olması mühümdür.

Mühüm bacarıqlardan biri də mövzulara görə məqsədyönlü tarixi müəyyənləşdirməkdir.

Perspektiv planlaşdırma aparmaq məqsədilə tərbiyəçi aşağıdakı bacarıqlara malik olmalıdır:

1. İnkişaf sahələrinə və məzmun standartlarına əsasən dəqiqləşmələr aparmaq, hansı məşğələdə reallaşdırılacağını müəyyənləşdirmək.
2. Mövzuların ardıcıllığını müəyyənləşdirmək.
3. İnteqrasiya imkanlarını müəyyən etmək.
4. Əlavə resurslar seçmək.
5. Mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq.

Planlaşdırma aparılarkən tərbiyəçi aşağıdakı tövsiyələri nəzərə almalıdır:

• Standartlar qrupuna əlavə standartlar daxil edə bilər.
• Mövzuları dəyişə və ya artıra bilər.
• İnteqrasiya üçün əlavə imkanlar müəyyən edə bilər.
• Əlavə resurslar seçə bilər.

**Perspektiv (illik) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır**

| **Standartlar** | **Məşğələ** | **Bölmə** | **Mövzular** | **İnteqrasiya** | **Resurslar** | **Tarix** |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

Aşağıda ikinci inkişaf sahəsi olan idrakın inkişafı üzrə 3-4 yaş qrupunda (orta qrup) perspektiv planlaşdırma nümunəsinə nəzər salaq.

| **Standart** | **Məşğələ növü** | **Bölmə** | **Mövzu** | **İnteqrasiya** | **Resurslar** | **Tarix** |
|---|---|---|---|---|---|---|
| 2.1.4.<br>2.1.2. | **Bədii ədəbiyyat üzrə iş və nitq inkişafı** | Şer | "Ana dilim"<br>(Şahin Xəlilov) | S.e. 4.1.1.; 4.3.1.<br>4.4.1; Es.3.2.3. | Müntəxəbat, şəkil,<br>DVD, "Bakı" albomu | Sentyabr III<br>həftə |
| 2.1.4.<br>2.1.2. | | Hekayə | "Sınmış fincan"<br>(K.D.Uşinski) | S.e. 4.1.1.; 4.3.1.<br>4.4.1; Es.3.2.3. | Müntəxəbat, şəkil | Sentyabr IV<br>həftə |
| 2.1.5.<br>2.3.3. | | Nağıl | "Pələng və Tülkü"<br>(Tacik xalq nağılı) | S.e. 4.1.1.; 4.1.2.<br>4.2.1. | Müntəxəbat, şəkil və<br>maskalar | Oktyabr I<br>həftə |
| 2.1.2<br>2.1.5. | | Şer | "Payızda"<br>(Nəriman Hüseyn) | S.e. 4.1.1.; 4.2.1.<br>4.4.1. | Müntəxəbat, şəkil,<br>DVD | Oktyabr II<br>həftə |
| 2.1.2.<br>2.1.4. | | Hekayə | Külək və günəş.<br>(Rus xalq nağılı) | S.e. 4.1.1.; 4.3.1.<br>4.4.1; Es.3.2.3. | Müntəxəbat, şəkil | Oktyabr III<br>həftə |
| 2.1.2. | | Nağıl | Kirpi və alma<br>(Azərbaycan xalq nağılı) | S.e. 4.1.1.; 4.4.1 | Müntəxəbat , şəkil | Oktyabr IV<br>həftə |
| 2.1.4. | | Şer | "Ana vətən"<br>(Nəriman Hüseyn) | S.e. 4.3.1.<br>Es.3.2.3 | Müntəxəbat, şəkil | Noyabr<br>I həftə |
| 2.1.2.<br>2.3.3. | | Hekayə | Alma ağacı<br>(L.N. Tolstoy) | S.e. 4.1.1.; 4.1.2.<br>4.4.1. | Müntəxəbat, şəkil | Noyabr II<br>həftə |
| 2.1.5.<br>2.1.1. | | Nağıl | "Şəngülüm, Şüngülüm,<br>Məngülüm"<br>(Azərbaycan xalq nağılı) | S.e. 4.1.1.; 4.2.1.<br>Es.3.3.2.<br>F.in. 2.1.1. | Müntəxəbat, şəkil,<br>plakat | Noyabr III<br>həftə |
| 2.1.4. | | Folklor | Saymacalar | S.e. 4.3.1.;<br>Es.3.2.3. | Müntəxəbat | Noyabr IV<br>həftə |

Cədvələ nəzər salarkən görürük ki, yuxarıda sadalananlar bu cədvəldə nəzərə alınmışdır.

**Cari (həftəlik) planlaşdırma**

Cari planlaşdırma alt-standartların həyata keçirilməsi məqsədilə ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət sahələri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır.

Cari planlaşdırma aparılarkən məşğələnin mərhələlərinə diqqət yetirilməlidir. Məşğələ aşağıda göstərilən istiqamətlər üzrə planlaşdırılmalıdır:

- Standart
- Təlim məqsədi
- Mövzu
- İş forması
- İş üsulu
- Resurslar

**Məşğələnin mərhələləri:**

● **Motivasiya** (mövcud biliklərin səsləndirilməsi və marağın yaradılması);

● **Dərketmə** (yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi);

● **Düşünmə** (qazanılmış bilik və bacarıqların yaradıcı tətbiqedilməsi).

● Nəticə və ümumiləşdirmələr.

● Dəyərləndirmə (məşğələ boyu aparılır).

Gündəlik planlaşdırma apararkən tərbiyəçinin ilk işi mövzunun standarta uyğunluğunu müəyyənləşdirməkdir. Standart müəyyənləşəndən sonra, ona müvafiq mövzu seçilir. Artıq standarta və öyrənilən mövzuya uyğun müəyyənləşdirilən təlim nəticələri tərbiyəçiyə deyil, uşağa yönəlməlidir. Əgər tərbiyəçi

məşğələnin məqsədini uşağın maraqları üzərində qurarsa uğurlu və nəticəyönümlü təlim təşkil edə bilər.

Uşağı təlimə cəlb etməyin bir yolu mövzuya və məqsədə uyğun fəal təlim forma və üsullarından yerində istifadə edilməsidir.

Tərbiyəçi məşğələnin birinci və ən mühüm mərhələsi olan motivasiyanı elə qurmalıdır ki, uşağı təlimə cəlb edə bilsin. Bu mərhələdə tərbiyəçi müxtəlif baxışların və variantların toqquşmasından yaranan vəziyyət əsasında sual qoyaraq uşaqları düşünməyə hazırlayır. Motivasiya ilk növbədə tədqiqat üçün həm mümkün, həm də uşağın öz bacarığını və qabiliyyətini həyata keçirilməsinə imkan verən, onun inkişaf xüsusiyyətlərinə müvafiq olmalıdır.

İkinci mərhələdə motivasiyadan çıxan fərziyyələr dəqiqləşdirildikdən sonra artıq tədqiqat işinə başlamaq olar. Tədqiqat müxtəlif formalarda – bütün qrupla birlikdə, qruplarda, cütlüklər şəklində və ya fərdi şəkildə aparıla bilər. İrəli sürülmüş problemin həlli üçün müxtəlif variantlardan istifadə olunur.

Məlumat mübadiləsi üçüncü mərhələdə aparılır. Qoyulmuş tədqiqat sualının cavabını tapmaq istiqamətində görülən işlər tədqiqat iştirakçılarını bir-birinin dəlillərini dinləmək zərurəti qarşısında qoyur.

Növbəti mərhələdə məlumatın müzakirəsi prosesi başlayır. Bu ən mürəkkəb mərhələdir. Belə ki, bu mərhələdə təfəkkürün müxtəlif növlərinin səfərbərliyə alınması baş verir. Tərbiyəçi bu mərhələdə fasilitasiya funksiyasını yerinə yetirir.

Sonrakı mərhələdə nəticələrin çıxarılması mərhələsidir. Tərbiyəçi qazanılmış biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi məqsədilə suallar qoyur və bu suallar əsasında biliklər və informasiyalar sistemləşdirilir. Uşaq əldə etdiyi bilikləri, gəldiyi nəticəni, irəli sürülmüş fərziyyələrlə tutuşdurur.

Təqdim edilən mərhələlər məşğələ zamanı hiss olunmadan biri-birini əvəz etməlidir. Məşğələlər zamanı uşaqların yorulmasına yol vermək olmaz. Odur ki, məktəbəqədər təhsil müəssisələrində məşğələlərə oyunlar və ya oyun elementləri daxil edilməli, onlardan təsirli bir öyrənmə vasitəsi kimi istifadə olunmalıdır.

Məlumdur ki, məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növü oyundur. Oyun uşaqlıq dövrünün ayrılmaz yoldaşıdır. Oyun uşağın fiziki, psixi, sosial-emosional, idraki və nitq inkişafına son dərəcə əhəmiyyətli təsir göstərir. Müxtəlif oyunlar uşaqlarda yaradıcılıq qabiliyyətinin inkişafına təkan verir. Oyun erkən uşaqlıq dövründən başlayaraq ətraf aləmlə fəal təmasa girməkdə, dünyanı dərk etməkdə uşağa kömək edir. Uşaqlar gələcəkdə onlara lazım olacaq sosial bacarıqları məhz oyunlar vasitəsilə öyrənir, mənimsəyirlər.

Bütün bunlar onu göstərir ki, oyunlar uşaqlarda özünəinam hissinin güclənməsində əhəmiyyətli rol oynayır. Onların gələcək həyatında baş verə biləcək real problemlərin öhdəsindən asanlıqla gəlmək imkanını genişləndirir.

4-5 yaş qrupu (böyük qrup) üçün bir məşğələ nümunəsinə nəzər salaq.

**İnkişaf sahəsi: idrakın inkişafı.**

Standart: 2.3.3. Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

Təlim məqsədləri:

-*Ev heyvanlarını adlandırır.*

- *Ev heyvanlarını əlamətlərinə görə fərqləndirir.*

-*Ev heyvanlarının faydasını öyrəndiyini nümayiş etdirir.*

- *Fikrini bütöv cümlələrlə rabitəli söyləyir.*

Mövzu: Ev heyvanları

İnteqrasiya: İdrak fəaliyyəti 2.1.5. Əlamət, keyfiyyət, hiss bildirən sözlərdən istifadə edir. Sosial-emosional inkişaf. 4.2.2. Qrupun üzvü kimi fəaliyyət göstərməyə təşəbbüs edir.

İş üsulu: Əqli hücum, müzakirə, suallar.

İş forması: Kollektiv və qruplarla iş.

Resurslar: Ev heyvanlarının şəkilləri, tablo və ya proyektor, oyun üçün atributlar, qələm, paylayıcı vəsait, DVD.

**Məşğələnin gedişi**

***I mərhələ.*** **Aktuallaşdırma və ya motivasiya:**

Tərbiyəçi uşaqların diqqətini tabloda dairəvi şəkildə təsvir olunmuş vəhşi heyvan şəkillərinə ***(canavar, ayı, pələng, tülkü)*** cəlb edir:-***Bunlar hansı heyvanlardır? Bu heyvanlar harada yaşayır?*** - kimi suallarla müraciət edir. Tərbiyəçi müvafiq cavab aldıqdan sonra uşaqların diqqətini həmin tablonun ortasında üzəri kağızla örtülmüş hissəyə cəlb edib, deyir:

-Uşaqlar, burada da heyvanların şəkilləri var. Onların hansı heyvan olduqlarını bilmək üçün gəlin əvvəlcə onların səsini dinləyək. (səsləndirir):

***- Hansı heyvanların səsini eşidirsiniz?***

Uşaqlar heyvanların adını çəkir. Tərbiyəçi bu dəfə onlara səsi təsvirlə birlikdə ***(at, it, inək, pişik, qoyun, keçi)*** nümayiş etdirir. Bir daha bu heyvanları adlandırmağı təklif edir. Tərbiyəçi uşaqlardan mümkün cavabları alır və onlara tapmaca söyləyir:

***Saqqalı uzun sallanar,***
***Dağa, daşa dırmanar.*** (keçi)

***Altı bulaq-içərlər,***
***Üstü zəmi-biçərlər.*** (qoyun)
***Evimizdə bir kişi var,***
***Xor-xor yatışı var.*** (pişik)

***O hansı heyvandır ki,***
***Yarışlarda qalibdir.***
***Keçmişdə döyüşlərdə***
***Qəhrəmana köməkdir?*** (At)

***O nədir ki ,evə girməz,***
***Sədaqəti eldə gəzər?*** (İt) və s.

Cavab düzgün tapılanda həmin heyvanın təsviri ekrana (və ya göstərilir) gəlir. Bu heyvanlar harada yaşayır?

***II mərhələ.*****Dərketmə mərhələsi:** ***Bu heyvanları necə adlandırmaq olar?***

Cavab aldıqdan sonra tərbiyəçi bir daha həmin heyvanların şəkillərini göstərir və aşağıdakı suallarla uşaqlara müraciət edir:

- *Nə üçün bu heyvanları ev heyvanları adlandırırlar?*
- *İnsanlar ev heyvanlarını nə üçün saxlayırlar?*

Ev heyvanlarının xarakter əlamətləri, qidalanması və faydası haqqında məlumat verir.

- İnək, qoyun və keçi- süd verir, samanla qidalanır, insanlar onların əti və südündən faydalanır. Qoyunun yunundan yorğan, döşək hazırlanır.
- İt- ev heyvanıdır, sahibinə sadiqdir, gəzib-dolaşmağı sevir, ət və ət məhsulları ilə qidalanır.
- Pişik- ev heyvanıdır, çox tənbəldir, istini, yatmağı və yeməyi çox sevir, siçanları tutur.
- At və ulaq (eşşək)- saman və otla qidalanır, atlar yarışlar-da iştirak edir, hər ikisindən yük daşımada və nəqliyyat vasitəsi kimi istifadə edilir.
- ***İdman dəqiqəsi. Musiqi sədaları ltında ritmik hərəkətlər.***

Gəlin addımlayaq biz *(addımlayırlar)*
Ondan sonra əl çalaq. *(əl çalırlar).*
Başımızı tərpədək, *(başlarını yırğalayırlar)*

Əllərimizi qaldıraq *(əllər yuxarı)*
Sonra aşağı salaq.
Bir, iki, üç
Yerimizdə qaçırıq.

***III mərhələ.*** **Düşünmə mərhələsi.**

Uşaqlar qruplara bölünür. Hər qrupa aşağıdakı tapşırıq testlər verilir.

**I qrup:** Uşaqlara ***inək, pişik, qoyun, keçi, it, eşşək*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının südünün içildiyini müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

**II qrup:** Uşaqlara ***inək, pişik, qoyun, it*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının əti yeyildiyini müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

**III qrup:** Uşaqlara ***inək, pişik, qoyun, at, keçi, it, eşşək*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının ət ilə qidalandığını müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

**IV qrup:** Uşaqlara ***inək, pişik, qoyun, at, keçi, it, eşşək*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının ot ilə qidalandığını müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

Hər qrupdan bir uşaq təqdimat edir. Qruplar biri-birinin işi ilə tanış olur, fikir mübadiləsi edirlər.

Tərbiyəçi oyun keçirir. Qrup otağında bir tərəfə ot, digər tərəfə ət qoyur. Sonra uşaqlara stolun üstünə qoyulmuş ev heyvanlarının təsviri olan atributları götürüb başlarına taxırlar. Sonra uşaqlara müraciət edərək, həmin heyvanın qidasının ətrafında dayanmağı təklif edir. Hər uşaq onda olan təsvirə əsasən həmin heyvan haqqında danışır. (Onun səsini təqlid edir, qadalanması, insanlara faydası haqqında danışır)

Məşğələnin sonunda tərbiyəçi məşğələni ümumiləşdirib, yekunlaşdırır.

## Uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsinə dair

Müasir dövrdə təhsilin keyfiyyətinin idarə olunmasının, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsi vacibdir. Bu işdə isə qiymətləndirmə mühüm pedaqoji vasitədir. Qiymətləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, uşaqların inkişafının necə getdiyini, nəyi mənimsədiklərini, nələri öyrəndiklərini, nələri edə bildiklərini və onlarda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır.

Məktəbəqədər yaşlı uşaqların qiymətləndirilməsinin əsas məqsədi müvafiq qrup fəaliyyətlərini müəyyənləşdirmək üçün uşaqlara kömək etməkdən ibarətdir.

Məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və qiymətləndirilməsi təlim və inkişafla bağlı düzgün qərarların verilməsi üçün, məlumatların toplanılması, təsvir edilməsi uşaqların hər bir yaş qrupunda inkişaf və təlimə dair dəlillərin tətbiq edilməsi daxildir. Bu məlumatlara uşaqların söhbətlərinin yazılması, onların çəkdikləri şəkillər və konstruksiyalar, məktəbəqədər yaşlı uşaqların davranışlarını göstərən şəkillər və epizodik qeydlər daxildir.

Uşağın inkişafının izlənilməsi ilə əlaqədar aparılan sənədləşdirmə və qiymətləndirmə uşağın normal inkişafına dair tərbiyəçilərin anlayışlarını inkişaf etdirir, uşaqların təlim ehtiyaclarının başa düşülməsinə kömək göstərir və təlim proqramının əks etdirilməsi üçün tərbiyəçinin bacarıqlarının formalaşmasına kömək

edir.

Uşaqların inkişafının izlənilməsi və qiymətləndirilmə prosesi aşağıdakı bir sıra tələblərlə şərtlənir:

✓ Müəyyən vaxt ərzində baş verir.

✓ Uşaqların inkişafına dair tərtib edilmiş xüsusi formalar əsasında aparılır.

✓ Hər bir uşağın zəruri ehtiyacları, ana dili və inkişaf mərhələsini əks etdirir.

✓ İnkişaf nöqteyi-nəzərindən müvafiq öyrənmə məqsədlərini əlaqələndirir.

✓ Müvafiq dərəcədə ailə ilə əlaqə saxlayır.

Uşaqların inkişafının izlənilməsi və qiymətləndirilməsindən əldə edilən məlumatlar tərbiyəçinin sonrakı fəaliyyətində istiqamətverici rol oynamalıdır. Bu məlumatlar uşaqların məktəbə yerləşdirilməsi və ya siyahıya alınmasına təsir göstərən mühüm qərarların əsası kimi xidmət göstərmir. İnkişafın izlənilməsi məktəbəqədər təhsilin qiymətləndirilməsinin tam sistemində yalnız bir komponent kimi nəzərdən keçirilməlidir.

Məktəbəqədər müəssisələrdə qiymətləndirmənin bir vasitəsi kimi portfoliodan istifadə edilir. Portfolio tərbiyəçilərin şərhləri ilə birgə uşaqların işlərinə dair nümunələrin sistemli qaydada toplanılması və müəyyən edilmiş təlim məqsədlərinə xidmət edən dəlil kimi istifadə edilməsidir. Portfolio - müəyyən vaxt ərzində öyrənmə məqsədlərini aydın şəkildə göstərir, uşaqların inkişafını təsvir edir, sənədləşdirir, hər bir uşağın fərdi inkişafını əks etdirir və uşaqların fəal surətdə bu prosesə cəlb edilməsini təmin edir.

**Portfolio vasitəsilə qiymətləndirmə üçün müəyyən strategiyalar həyata keçirilir:**

• Qiymətləndiriləcək inkişaf sahələrini müəyyənləşdirir (məsələn, idrakın inkişafı, böyük və kiçik motor bacarıqları, riyazi anlayışlar, yaradıcılıq, ünsiyyət və s.).

• Uşaqların işlərinə dair nümunələr bir qayda olaraq toplanılır.

• Uşaqların işlərinə dair nümunələrinin saxlanılma sistemlərini inkişaf etdirir.

• Uşağın inkişafına dair əlavə perspektivlər əldə etmək üçün sənədlər vasitəsilə öz həmkarları ilə fikir mübadiləsi edir.

• Uşaqların inkişafının izlənilməsinə kömək edir və s.

Portfolioya aşağıdakılar daxildir:

- ***təsviri və ya gündəlik qeydlər;***
- ***iş nümunələri;***
- ***ailə məlumatları;***
- ***yaş və inkişaf səviyyəsi cədvəlləri;***
- ***inkişafa dair hesabat.***

***Təsviri və ya gündəlik qeydlər.*** Bu, uşaqların fərdi və ya qrup şəklində fəaliyyətləri haqqında günün sonunda təəssüratların qeyd olunmasıdır. Onlar subyektiv xarakter daşıyır. Bu qeydlər gün ərzində baş verən hadisələr arasında uşaqların müəyyən nailiyyət və uğursuzluğunu izləməkdə faydalı ola bilər.

***İş nümunələri.***

İş nümunələrinin təhlili zamanı uşaq əvvəlcədən tərbiyəçi (valideyn) tərəfindən hazırlanmış xüsusi tapşırığı yerinə yetirir. Tapşırıq şəkil çəkmək, işarələr qoymaq, yarımçıq işi tamamlamaq, quraşdırma, yapma, riyazi əməliyyatları yerinə yetirmək, əşyalarla oyun və s. ibarət ola bilər. Belə tapşırıqlardan, əsasən, köməkçi metod kimi istifadə edilir. Bir tapşırığın nəticəsi ümumi rəy üçün əsas ola bilməz. Bu nəticələrin digər qiymətləndirmə metodlarının nəticələri ilə müqayisəsi (korrelyasiyası) aparılır.

***Ailənin məlumatları.***

Tərbiyəçilər və valideynlər məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsi işində daim əməkdaşlıq edirlər. Bu əməkdaşlığın mühüm bir cəhəti kimi ailənin uşaq haqqında məlumat verməsi-

dir. Tərbiyəçilər sorğudan istifadə etməklə uşaq haqqında məlumat toplayır. Açıq ünsiyyət inkişafın müxtəlif sahələrində müşahidə və biliyin qiymətləndirilməsi üçün ilkin şərtdir.

***Yaş və inkişaf səviyyəsi cədvəlləri.*** Hər yaş dövrünün sonunda uşaqların inkişaf səviyyələri müəyyən olunur.

Uşaqların yaş və inkişaf səviyyələrinin müəyyənləşdirilməsi və qiymətləndirmənin mütəmadi aparılması uşaqların fərdi maraqlarına, öyrənmə üsullarına və bacarıqlarına cavab verən müvafiq təlim strategiyalarının planlaşdırılması üçün əsas üsul hesab edilir. Bu qiymətləndirmə sistemi təlim strategiyaları vasitəsilə tərbiyəçilərin əsas nələrə diqqət yetirmələrinə və uşaqların davamlı inkişaf və təliminə dəstək olmaqdaköməklik göstərəcəkdir.

Hər rübün sonunda keçirilən bu monitorinq uşaqların əldə etdiyi nailiyyətlərin mövcud standartlara uyğunluğunu öyrənmək məqsədilə aparılır. Bu prosesdə toplanmış məlumatlar təlim prosesinin tənzimlənməsində mühüm əhəmiyyətə malikdir. Belə ki, həmin məlumatlar əsasında tərbiyəçi uşaqların inkişafında özünü göstərən geriqalmaları müəyyən etməli, onların aradan qaldırılması üçün müəyyən tədbirlər hazırlamalı və uşaqlara fərdi yanaşmaqla, yaxud kollektiv fəaliyyət növlərindən istifadə etməklə həmin gerilənmənin aradan qaldırılmasına nail olmalıdır. Bununla da, tərbiyəçi hər bir uşağın yaşına uyğun bütün inkişaf sahələri üzrə standartların tələblərinə cavab verməsi üçün onların irəliləməsinə nail olmalıdır. Bu zaman tərbiyəçi uşaqda müəyyən edilən zəifliyin aradan qaldırılması və onunla əlavə iş aparması üçün nə qədər vaxt sərf edəcəyini, uşağın öyrəndiyini sərbəst tətbiq edə biləcəyini müəyyənləşdirməli, ümumi qrup üçün nəzərdə tutduğu planında hər hansı dəyişikliyin aparılması üçün optimal yollar tətbiq etməlidir.

**Aşağıda orta qrup uşağı üçün nəzərdə tutulan yaş və inkişaf cədvəlinə nəzər salaq.**

## Yaş və inkişaf səviyyəsi cədvəlləri
### 4 Yaş

| Bacarıqlar | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
|---|---|---|---|
| **Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik** | | | |
| Sadə özünəxidmət vərdişləri (soyunmaq, geyinmək, yemək, yuyunmaq) nümayiş etdirir. | | | |
| Şəxsi mədəni gigiyena qaydalarına əməl edir. | | | |
| Şəkil çəkir, rəngləyir, qayçıdan istifadə edir. | | | |
| Pilləkənləri enib-qalxır. | | | |
| Topu təpiklə vurur, tullayır, tutur, qaçır, üstündən tullanır. | | | |
| Müxtəlif məsafələrdə olan əşyaları forma, rəng, hərəkət, ölçü, səs, qoxusuna görə tanıyır. | | | |
| Sadə təhlükəsizlik qaydalarına əməl edir. | | | |
| Əsas hərəkətləri yerinə yetirir. | | | |
| **Sosial-emosional inkişaf** | | | |
| Digərləri ilə oynayır və qarşılıqlı fəaliyyətdə olur. | | | |
| Ehtiyacları haqqında fikirlərini ifadə edir. | | | |
| Problemin həllinə maraq göstərir. | | | |
| Qrup fəaliyyətində iştirak edir, özünü qrupun üzvi kimi göstərməyə cəhd edir. | | | |
| Kiçiklər, yaşıdları və yaşlılarla ünsiyyət qurur. | | | |
| Sevimli insanları, xoşladığı məşğuliyyəti fərqləndirir. | | | |
| Ünsiyyətdə qoyulan sadə qayda və tapşırıqlara dözümlülük nümayiş etdirir. | | | |
| Kiçik münaqişələri həll edə bilir. | | | |
| Sadə əmək tapşırıqlarını yerinə yetirir. | | | |
| **İdrakın inkişafı** | | | |
| Üç dairəsində sayma, hesablama əməliyyatları yerinə yetirir. | | | |
| Əşyaları əlamətinə (forma, ölçü, kəmiyyət) görə fərqləndirir. | | | |
| Məkan anlayışlarını fərqləndirir. | | | |
| Həndəsi fiqurları (dairə, üçbucaq) tanıyır. | | | |
| Əşyalar, həndəsi fiqurlar və rəqəmlərlə sadə əməliyyatlar (toplama, az-çox, böyük-kiçik, hündür-alçaq) yerinə yetirir. | | | |
| Hərflərlə və səslərlə maraqlanır ("oxu" bacarıqlarına başlayır) | | | |
| Dinlədiyi fikrə əsasən hərəkətlərini tənzimləyir və reaksiya verir. | | | |
| Danışıq səslərini müxtəlif dil vahidlərində (heca, söz, | | | |

| | | | |
|---|---|---|---|
| cümlə) düzgün tələffüz edir. | | | |
| Kiçiklər, yaşıdları və yaşlılarla ünsiyyət qurur. | | | |
| Ünsiyyətdə qoyulan sadə qayda və tapşırıqlara dözümlülük nümayiş etdirir. | | | |
| Özü və ətrafdakılar haqqında təsəvvürlərini sualların köməyi ilə ifadə edir. | | | |
| Sadə əmək tapşırıqlarını yerinə yetirir. | | | |
| Diqqəti yayınmadan tapşırığı tamamlaya bilir. | | | |
| Müstəqil işləyir, lazım gəlsə, kömək istəyir. | | | |
| İşlərin yaxşı olmasına cəhd edir. | | | |
| Öyrənməyi sevir. | | | |
| **Estetik-yaradıcı inkişaf** | | | |
| Sadə təsvir alətlərindən və vəsaitlərdən (karandaş, flamaster fırça, yapışqan, plastilin) təyinatına görə istifadə edir. | | | |
| Sadə quraşdırma (tikinti materiallarından sadə modellər düzəltmək) bacarıqları nümayiş etdirir. | | | |
| Musiqini dinləyir, janrına və xarakterinə görə reaksiya verir, sadə ifaçılıq bacarıqları (sadə mahnılar oxumaq, musiqili-ritmik hərəkətlər etmək) nümayiş etdirir, musiqi alətini (piano, qarmon, dəf, tütək) tanıyır və adlandırır. | | | |
| Bədii fəaliyyət üzrə müstəqil, sadə yaradıcılıq (təsviri, musiqi fəaliyyəti, bayram və əyləncələrdə iştirak etmək) bacarıqları nümayiş etdirir. | | | |
| Qiymətləndirmə bacarığı nümayiş etdirir. | | | |

## İNKİŞAFA DAİR HESABAT

***5-6 yaş***

***Uşağın adı*________________________________**

***Tərbiyəçi*________________________________**

***Uşaq bağçası_____2012-2013________________***

Məktəbəqədər yaşlı uşaqların inkişafı onların fərdi irəliləyişinə uyğun olaraq dəyərləndirilir. Uşaqlarda bacarıqların əldə edilməsi müxtəlif formada və zamanda baş verir.

**Uşaqların irəliləyişini təsvir etmək üçün aşağıdakı inkişaf miqyaslarından istifadə edilir:**

***1-meyarlara cavab vermir*** ***2-meyarlara cavab verməyə başlayır***

***3-meyarlara cavab verir*** ***4-gözlənilənlərdən artıq nailiyyət əldə edir.***

| İNKİŞAF SAHƏLƏRİ ÜZRƏ FƏRDİ PLANLAŞDIRMA | *May* | *Yanvar* |
|---|---|---|
| **I.İDRAKIN İNKİŞAFI – nitq inkişafı üzrə** | | |
| Dinləyib-anladığı fikirlərə münasibət bildirir. | | |
| Bədii nümunə, müşahidə və şəkillər əsasında fikrini sadə şəkildə şərh edir. | | |
| Sadə nitq etiketlərindən (“bəli”, “xeyr”, “salam”, “sağ ol”, “çox sağ ol”, “bağışla”, “buyurun”, “zəhmət olmasa”, “nuş olsun”, “xoş gəlmisiniz”, “yaxşı yol”), jest və mimikalardan istifadə edir. | | |
| Müxtəlif ilkin oxu bacarıqlarını tətbiq edir (şəkillər, nümunələr, ritmlər, hadisələrin ardıcıllığı, hekayələrin yenidən söylənməsi və s.) | | |
| Əlamət, keyfiyyət, hiss bildirən, antonim və sinonim sözlərdən istifadə edir. | | |
| Hərf və səsləri fərqləndirir, hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən mətnlər qurur. | | |
| **İDRAKIN İNKİŞAFI – sadə riyazi təsəvvürlərin inkişafı üzrə** | | |
| On dairəsində sayma, hesablama və ölçmə əməliyyatları yerinə yetirir. | | |
| 10-a qədər düzünə və tərsinə sayır. | | |
| Əşyalar içərisindən dairəni, üçbucağı, kvadratı seçir, fərqləndirir və müqayisə edir. | | |
| Əşyaları əlamətinə (rəng, forma, ölçü, kəmiyyət və həcm) görə ayırd edir, ümumiləşdirir, səbəb-nəticə əlaqələri müəyyənləşdirir. | | |
| Əşyalar, həndəsi fiqurlar, rəqəmlər və işarələrlə sadə riyazi əməliyyatlar (toplama, çıxma, bərabər, qeyri-bərabər) və konstruktiv bacarıqlar (planlaşdırma, modelləşdirmə, sxemləşdirməvə simvollaşdırma) nümayiş etdirir. | | |
| Oyun və tədqiqatlar zamanı müxtəlif vəsaitlərdən (maqnit, böyüdücü şüşə, xətkeş və s.) istifadə edir. | | |
| Məkan (sağdan sola, yuxarıdan aşağıya, ortaya, küncə) və zamanla bağlı (ilin fəsilləri, aylar, həftənin günləri, günün hissələri, saat) ilkin riyazi əməliyyatlar yerinə yetirir. | | |
| **İDRAKIN İNKİŞAFI - ətraf aləmlə tanışlıq üzrə** | | |
| Ətraf mühiti öyrənməyə maraq nümayiş etdirir | | |
| Canlı və cansız aləmdəki obyektlərlə düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir. | | |
| Səma cisimlərində, gündəlik havada və ilin fəsillərində olan dəyişikliklərdə fərqli və oxşar cəhətləri müəyyən edir, əlaqələri izah edir və məntiqi nəticələr çıxarır. | | |
| Müxtəlif materialların keyfiyyətini təsvir edərək, onların gündəlikdə | | |

| | | |
|---|---|---|
| necə istifadə olduğunu deyir. | | |
| Müəyyən müddətdə (bir neçə gün\gecə, həftə ərzində) ətraf mühitdə verən hadisələri\fəaliyyətləri təsvir edir və izah edir. | | |
| Ailə və vətən haqqında (dövlət rəmzləri, milli ordu, milli qəhrəmanlar, milli sərvətlər, tarixi günlər və abidələr, milli bayramlar) sadə təqdimatlar edir. | | |
| **İDRAKIN İNKİŞAFI – elementar tədqiqatçılıq üzrə** | | |
| Tədqiqatçılığa maraq nümayiş etdirir. | | |
| Obyektlər haqqında məlumat toplayır və müxtəlif yollar ilə (müzakirə edir, şəkillər şəkir, müxtəlif simvollar düzəldir və s.) izah və təsvir edir. | | |
| Müşahidələri müzakirə edir və qeydlər aparır. | | |
| Səbəb-nəticə əlaqələri müəyyənləşdirir. | | |
| Müxtəlif təbiət materialları (daş, qum, su, torpaq) haqqında məlumat toplamaq üçün hiss üzvlərindən istifadə edir və onlar haqqında izahat verir və ümumiləşdirmə (məsələn, materialların fərqini müəyyən edir, oxşar cəhətlərini, onlar bir-biri ilə necə əlaqəli olduğunu deyir və s.). aparır. | | |
| **II. ESTETİK VƏ YARADICI İNKIŞAF - təsviri fəaliyyət** | | |
| Rəsmetmə (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sujetlər yaratmaq), yapma (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sadə obrazlar yaratmaq) və yapışdırma (müxtəlif kəsmə üsullarından istifadə edərək, mövzular, bədii əsərlər, təsəvvürləri əsasında kompozisiyalar qurmaq) bacarıqları nümayiş etdirir. | | |
| Təsvir alətləri və vəsaitlərdən (sadə və rəngli karandaş, flamaster, rəngli təbaşir, kömür, rəngli boya, qayçı, fırça, yapışqan, rəngli kağızlar, gil və plastilin, molbert, palitra) təyinatına görə istifadə edir. | | |
| **ESTETİK VƏ YARADICI İNKİŞAF -quraşdırma** | | |
| Verilmiş nümunə və sxemlər əsasında quraşdırma (fərdi və kollektiv şəkildə müxtəlif fiqurlar və kompozisiyalar düzəltmək), planlaşdırma bacarıqları nümayiş etdirir. | | |
| **ESTETİK VƏ YARADICI İNKİŞAF -musiqi** | | |
| Musiqini dinləyərək xarakterinə, janrına, melodiyasına, ritminə, səs tonuna, müəyyən hissəsinə görə fərqləndirir, ifaçılıq (solo və xorla oxumaq; musiqili-ritmik hərəkətləri yerinə yetirmək; uşaq musiqi alətlərində tək və ansamblda ifa etmək) bacarıqları nümayiş etdirir. | | |
| Müstəqil yaradıcılıq (təsviri fəaliyyət, musiqi və konstruktiv fəaliyyət, rolların ifası) qabiliyyətləri nümayiş etdirir. | | |
| **III. FİZİKİ İNKİŞAF, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK** | | |
| Əsas hərəkətləri (qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yerimək və qaçmaq; yerində, uzununa və müxtəlif istiqamətlərə hoppan- | | |

| | | |
|---|---|---|
| maq; müxtəlif əşyaların üstü, altı və arası ilə sürünmək; məhdudlaşmış sədd üzərində müvazinəti saxlamaqla yeriş və yürüş; gimnastika nərdivanına istiqaməti dəyişməklə dırmanmaq; topu yerə vuraraq irəliləmək; kürəciyi diyirlətmək; qum kisəciyini atmaq) yerinə yetirir. | | |
| Müxtəlif məsafələrdə olan əşyaları sensor və emosional xüsusiyyətinə (forma, rəng, hərəkət, ölçü, səs, dad və iyinə) görə ümumiləşdirir və təsnif edir. | | |
| Özünəxidmət vərdişləri (yatağını, xarici görünüşünü səliqəyə salmaq; təmizliyə riayət etmək) nümayiş etdirir. | | |
| Şəxsi mədəni gigiyena qaydalarına (saçının səliqəsini, bədəninin, paltarlarının, dişlərinin təmizliyini gözləmək; tez və səliqəli soyunub, geyinmək; paltarlarını səliqə ilə yığmaq; yatağını səliqəyə salmaq) əməl edir. | | |
| Əşyalardan (karandaşlar, flamaster, rəngli təbaşir, rəngli boya, mozaika, musiqi oyuncaqları, yapışqan, pazllar, qayçı, düymə), təbiət, tullantı və tikinti materiallarından təyinatına görə istifadə edir. | | |
| Sadə təhlükəsizlik qaydalarına (təhlükəli heyvan, bitki və əşyalar, dərman və kimyəvi preparatlarla müvafiq qaydada davranmaq; yol hərəkəti qaydalarına riayət etmək; situasiyaya uyğun yanğınsöndürən, təcili yardım və polisə çağırışlar etmək; özünə və başqalarına ilkin yardım göstərmək; təbiət və fövqəladə hadisələr zamanı ehtiyat tədbirləri görmək; məişətdə ehtiyatlı davranmaq) əməl edir. | | |
| Fəaliyyət zamanı hərəki qabiliyyətlər[5] nümayiş etdirir. | | |
| Masa arxasında mədəni davranış qaydalarına (qamətini düz saxlamaq; yemək dəstləri-qaşıq, bıçaq və çəngəldən istifadə etmək; səssiz və səliqəli yemək) əməl edir. | | |
| Sadə oyunların qaydalarını başa düşür və əməl edir | | |
| **IV. SOSİAL-EMOSİONAL İNKİŞAF** | | |
| Öz fəaliyyətini sosial normalara (qrupdaxili qaydalar, kollektivdə etik davranış) uyğunlaşdırır. | | |
| Özünə nəzarəti nümayiş etdirir. | | |
| Öyrənmənin çətinliklərini qəbul edir. | | |
| Münaqişələrin və problemərin həlli yollarını tapır. | | |
| Öz hərəkətləri üçün məsuliyyəti qəbul edir. | | |
| Qrup fəaliyyətlərində diqqətli olur. | | |
| Özünün və qrupun əmlakının qayğısına qalır. | | |
| Səmərəli iş vərdişlərini müəyyən edir və təcrübədən keçirir. | | |
| Digərləri ilə əməkdaşlıqda işləyir və oynayır. | | |

[5] Uşaq şəxsiyyətinin hərtərəfli inkişafı təmin olunur. Onlarda təmkin, israr, qətiyyət, cəsarət, təşkilatçılıq, təşəbbüskarlıq, müstəqillik, yaradıcılıq və fantaziya kimi qabiliyyətlər inkişaf edir.

| | | |
|---|---|---|
| Lazım olanda müstəqil işləyir. | | |
| Qrupun gün rejiminə əməl edir. | | |
| Təşəbbüskarlıq  nümayiş etdirir. | | |
| Gözləməyi və növbəni qəbul edir. | | |

***YANVAR ÜÇÜN QEYDLƏR*:** Digərlərinə qarşı mehribandır və hörmət edir. Qrup otağında başqalarına kömək etməyi sevir və tərbiyəçinin köməyi ilə kiçik qrup fəaliyyətlərində iştirak edir. Öz işi ilə məşğul olarkən yoldaşlarının gördüyü işlər onun diqqətini yayındırır. Çünki o, hər şeyi bilməyə can atır və yeni şeyləri asanlıqla öyrənir. Biz bu yarım ildə onunla daha çox məşğul olmağı və onun öz gücündən konstruktiv və yaradıcı yollarla istifadə etməsinə kömək etməyi planlaşdırırıq.

**Tərbiyəçinin imzası: ______________________________**

**Valideynin imzası: _______________________________**

***MAY AYI ÜÇÜN QEYDLƏR:***

**Tərbiyəçinin imzası: ______________________________**

**Valideynin imzası: _______________________________**

Hər bir uşaq üçün fərdi olaraq tətbiq olunan bu cədvəldə bütün inkişaf sahələrinin standartları özünəməxsus bacarıqlar şəklində əks olunur. Tərbiyəçilər hər bir uşaqda həmin bacarıqların səviyyəsini "*yanvar*" və *"may"* aylarında monitorinq vasitəsilə cədvəldə göstərilmiş 4 meyar əsasında qiymətləndirməlidirlər. Bununla da uşaqların istənilən bacarığının hansı səviyyədə olması aydın görünür və yarımildə-yəni yanvarda uşağın inkişafında müəyyən olunan geriqalmalar, artıq ilin sonuna qədərki müddətdə tərbiyəçi tərəfindən müəyyən üsullarla aradan qaldırılmalıdır. İnkişafa dair hesabatla valideynlər də tanış olmalı və tədris ilinin sonunadək hesabatlar uşaqların şəxsi portfoliolarında saxlanılmalıdır.

## İstifadə olunmuş ədəbiyyat

### *Azərbaycan dilində*


1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) //Azərbaycan məktəbi, 2007, № 2, s. 83-112.

2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. (2007-2010 - cu illər) Bakı şəhəri, 12 aprel 2007-ci il. Azərbaycan müəllimi, 13 aprel 2007-ci il.

3. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. TPİ, Bakı, 2011, s.44-54.

4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 5 sentyabr 2009-cu il. //www.edu.gov.az.

5. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. Bakı, Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu, 2002. 36 s.

6. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". 16 iyul 2010-cu il. http://www.edu.gov.az/

7. "Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərar. Azərbaycan Respublikası Nazirlər Kabineti, 8 yanvar 2010-cu il. //www.edu.gov.az.

8. Əhmədov A.Ə., Abbasov Ə.M. Məktəbəqədər təhsilin konseptual problemləri. //Kurikulum, 2011, № 2, səh.8-15.

9.Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. B., Mütərcim, 2010, 512 s.

10.Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2009, 280 s.

11. Pometun E. İnteraktiv təlim. (Müəllimlər üçün tədris vəsaiti) (Tərcümə edəni K.Quliyeva) Bakı, 2010, 162 s.

12. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı, TPİ, 2011, 342 s.

13.Veysova Z.A. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait, UNİCEF, 2007, 149 s.

***İngilis dilində***

1. Creative curriculum. For infants, toddlers and twos. USA, vashington, 2010.p.-247

2. Creative Curriculum for Preschool, Diane Trister Dodge, Teaching Strategies. 2002, 540 s.

***Rus dilində***

1.Курриkулум по воспитанию детей раннего и дошkольного возраста (1-7 лет) Респ. Молдова, Ин-т педагогичесkих наук. – Ch.: S. n., 2007 (Combinatul Polig.). – 108 стр.

Kitab Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun
Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatında yığılıb,
səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanıb 25.11.2015. Kağız formatı 60x84 1/16,
Ofset çapı. Ofset kağızı və şərti çap vərəqi 3,5.
Sifariş 3. Tiraj 3000. Müqavilə qiyməti ilə.

Az, Bakı şəhəri Afiyəddin Cəlilov küçəsi 86.
Tel: (+994 12) 490 29 32; 490 29 34

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN YENİ MƏZMUNUNUN XÜSUSİYYƏTLƏRİ

